05_27 IYUl-QARA.qxd 2/8/2024 9:50 PM Page 1

UNİKAL

№05 (2187) 9 fevral 2024-cü il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.az unikal-1@mail.ru



# Yeni dönəmə start verilir:

## İdarəetmə sistemində köklü dəyişikliklər olacaq



Səh.7

## "Xankəndidə səsvermənin böyük siyasi və rəmzi mənası var" - İlham Əliyev

*Fevralın 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan-Türkiyə parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrımın başçılıq etdiyi Türkiyə Böyük Millət Məclisinin üzvlərindən ibarət nümayəndə heyətini qəbul edib. "Unikal" xəbər verir ki, Prezident İlham Əliyev seçkiləri müşahidə etdiklərinə görə nümayəndə heyətinə minnətdarlığını bildirib. Şamil Ayrım nümayəndə heyəti adından çıxış edərək dövlət başçısını prezident seçkilərində inamlı qələbəsi münasibətilə təbrik etdi. Qonaq Prezident İlham Əliyevin və Prezident Rəcəb Tayyib Ərdoğanın səmimi dostluğunun və qardaşlığının ölkələrimiz arasında əlaqələrin inkişafında xüsusi rolunu...*

Səh.2

## "Xalq azad şəkildə öz iradəsini ifadə etdi"



*Milli Məclisin deputatı Azər Badamov "Unikal"a müsahibə verib. O, növbədənkənar prezident seçkilərindən, bundan sonrakı dönəmdə olacaq islahatlardan, bu il referendum, parlament seçkilərinin keçirilə biləcəyi ehtimalından və Azərbaycan-Ermənistan arasında sülh müqaviləsinin nə zaman imzalana...*

Səh.4

## Elman Rüstəmovun adı yeni qalmaqala qarışdı




*Ötən sayımızda xəbər verdiyimiz kimi, Azərbaycanda bankın rəsmi gəliri cüzi olan vətəndaşa külli miqdarda istehlak krediti verdiyi məlum olmuşdu. Belə ki, AZAL-ın sabiq "şef"i Cahangir Əsgərovun həyat yoldaşı Zərifə Əsgərovanın əsas səhmdarı olduğu "Premium Bank" 2013-cü ildə rəsmi gəliri olmayan və*

Səh.5

## "Biz bütün dünyaya göstərdik ki, normal seçki keçirə bilirik"



*"Mənim səsim" Seçki Monitorinq Koalisiyası fevralın 7-də keçirilən növbədənkənar prezident seçkilərində apardığı müşahidənin nəticələrini açıqlayıb. "Unikal" xəbər verir ki, koalisiya üzvləri müşahidə nəticələrinə dair brifinq keçirib. "İnsan Hüquqları və Qanunçuluğun Müdafiəsi"...*

Səh.9

05_27 IYUI-QARA.qxd 2/8/2024 9:51 PM Page 2



# "İstəmirəm ki, sonra tabut üstündə ağlayasınız" - Afaq Başirqızı Brilliant Dadaşovadan danışdı

***"Brilliant Dadaşovanın zəngini eşitdim. Həqiqətən, onun zəngi mənə pis təsir etdi. Brilliant bilir ki, mən onu nə qədər çox istəyirəm. Amma bu qədər həssas, diqqətcil olduğu nəzərimə çatmamışdı. Çünki Brilliant çox da cəmiyyət arasına çıxan insan deyil. Brilliant ürəyinə qurban. Ehtiram Xalq artisti deyil, nə də ki, "lyubimçik" deyil, amma bunlara baxmayaraq, sən onu bu qədər tərifləndin".***





Bu sözləri Xalq artisti Afaq Başirqızı "Elgizlə izlə" verilişinə açıqlamasında deyib. Proqrama zəng edən aktrisa Xalq artisti Brilliant Dadaşovanın Əməkdar artist Ehtiram Hüseynova görə ağlamasından danışıb:

"Ehtiramı çox istəyirəm. Bütün incəsənət xadimlərinə demək istəyirəm ki, Brilliant xanım sizə örnək olsun. Bir-birinizə qarşı diqqətli olun. Çünki mən istəmirəm, sonra siz tabut üstündə ağlayıb deyəsiniz ki, "Vaxtsız getdi, dostumuz idi" və sair. İnsanların qədrini sağlığında bilin. Onlar da bilsinlər və heç olmasa bir az yaşamaq həvəsində olsunlar".

# "Maska"nın ikinci mövsümü olacaq?

***İTV-nin maraqla izlənən "Maska" layihəsinin ikinci mövsümünün olub-olmayacağı haqda sosial şəbəkələrdə suallar ünvanlanır.***



Telekanal bununla bağlı süjet hazırlayıb. Süjetdə şounun ikinci mövsümünün olub-olmayacağı haqda İTV-nin baş direktoru, layihənin baş prodüseri Balakişi Qasımov danışıb. O bildirib ki, bu, sual altındadır:

"Kanal, Azərbaycan telemәkanı üçün çətin layihədir. Bunu həyata keçirtmək üçün kanalın bütün resurslarını mobilizasiya etmişdik. Hətta kanaldan kənar mütəxəssislər cəlb etmişdik. Əgər bir də bu yükün altına girə bilsək, imkan bizdə olsa, böyük məmnuniyyətlə bunu edərik. Tamaşaçılar buna layiqdir. Artıq ikinci mövsüm haqda bizə yazırlar. Çalışacağıq bunu doğruldaq. Amma deyə bilmərəm ki, ikinci mövsüm olacaq".

Qeyd edək ki, şouda qalib "Canavar" obrazı ilə çıxış edən müğənni Dilarə Kazımova olub.

# "Aygün Kazımovanı ana bətnindəki uşaq da tanıyır"



***"Aygün Kazımona dünyaya gəlməyən, ana bətnindəki uşaq da tanıyır".***

Bu sözləri müğənni İzzət Bağırov "Xəbər-ətər" proqramında deyib. Sənətçi Xalq artisti Aygün Kazımovadan bəhs edib.

"Bu yaxınlarda düşünürəm ki, onu kimlə müqayisə etmək olar? Heç kimləsə müqayisə etmək olmur. Bu adam sənət fədaisidir. Malını, dövlətini, hər şeyini səhnəyə fəda edib. 33 ildir səhnədəyəm, balacadan böyüyə hamı səni tanıyır. Bu, ən böyük xoşbəxtlikdir, hər müğənniyə nəsib olmur. Adam var Xalq artistidir, 40 ildir səhnədədir, heç kim onu tanımır. Baxırsan ki, titulları var, tanınmır. Elə müğənni olar? Bədbəxtçilikdir" deyə, İzzət bildirib.



# Cənublu müğənnidən Şəbnəmə: "Adını mənə qoyma, məhkəmədə..."

***Cənubi azərbaycanlı müğənni Peyman Keyvani ilə Şəbnəm Tovuzlu arasında qalmaqal davam edir.***

"Unikal" lent.az-a istinadən bildirir ki, onlar arasında narazılıq Şəbnəmin Peymana aid "Dumanlı şəhər" mahnısını icazəsiz ifa etməsi olub.

2 gün öncə Şəbnəm Tovuzlu canlı yayımda Peyman Keyvaniyə hədə-qorxu gələrək, onun haqqında xoş olmayan ifadələr işlədib.

Peyman da buna öz sosial şəbəkə hesabından cavab verib. "Adını özgələrə qoyan müğənni Şəbnəm Tovuzlu məndən oğurluq edib, böyük səhv edib. Bir dəfə onun kanalını bağlatdırmışam, yenə edəcəm. Bu davaya məhkəmədə baxılacaq",- o bildirib.

Tərəfləri hansı ölkənin hüquq sisteminin məhkəməyə çəkəcəyi barədə məlumat verilmir.

# "Sizi bir övlad kimi təbrik edirəm!" - Röya Ayxan

***"Xalq sevdiyi, inandığı, güvəndiyi cənab İlham Əliyevi - Böyük qayıdışın müəllifini seçdi".***



"Unikal" olay-a istinadən bildirir ki, bu sözləri Xalq artisti Röya Ayxan instaqramda paylaşıb. Sənətçi Ali Baş Komandanın seçkilərdəki qalibiyyəti ilə bağlı sevincini dilə gətirib: "Sizi bir Xalq artisti, xalqın sevdiyi sənətçi, ana, bacı, övlad kimi təbrik edirəm!".

# Əli Mirəliyev xəstəxanaya yerləşdirildi

***Müğənni Əli Mirəliyev xəstəxanaya yerləşdirilib.***

"Unikal" xəbər verir ki, bu haqda "Elgizlə izlə" proqramında deyilib. Sənətçinin xanımı onun səhhətindən danışıb. O bildirib ki, Ə.Mirəliyev əməliyyat olunacaq:

"Vəziyyəti çox ağır idi, indi müayinələrin cavabını gözləyirik. Həkimlər deyib, əməliyyat olunacaq".

Aparıcı Elgiz Əkbər isə "Dua edirik ki, xərçəng olmasın. Şübhələr var. Qan ifraz edib. Həkimlər hazırda analiz nəticəsini gözləyir. 4 gün vəziyyəti çox pis olub" sözlərini əlavə edib.



05_27 IYUI-QARA.qxd 2/8/2024 9:52 PM Page 3





# Prezidentliyə namizədlər İlham Əliyevə zəng etdilər

***Fevralın 8-də Azərbaycan Respublikası Prezidenti seçkilərində namizəd olmuş Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədri Qüdrət Həsənquliyev, Böyük Quruluş Partiyasının sədri Fazil Mustafa, Böyük Azərbaycan Partiyasının sədri Elşad Musayev, Milli Cəbhə Partiyasının sədri Razi Nurullayev, həmçinin namizədlikləri öz təşəbbüsləri ilə irəli sürülmüş Zahid Oruc və Fuad Əliyev seçkilərdə Azərbaycan xalqının böyük etimadını qazanaraq qalib gəlmiş Prezident İlham Əliyevə zəng ediblər.***

"Unikal" xəbər verir ki, namizədlərin hər biri demokratik, şəffaf və ədalətli şəkildə keçirilmiş seçkilərdə yenidən parlaq qələbə qazanması münasibətilə Azərbaycan Respublikasının Prezidentini səmimiyyətlə təbrik edib, səsvermənin nəticələrinin Azərbaycan xalqının dövlət başçısına olan inam və etimadının ifadəsi, ölkəmizin sosial-iqtisadi inkişafı və xalqımızın rifahı yolunda həyata keçirdiyi qətiyyətli siyasətə verilən yüksək qiymətin və dəstəyin əyani təzahürü olduğunu bildiriblər.

Namizədlər budəfəki seçkilərin ərazi bütövlüyünü və suverenliyini tam bərpa etmiş ölkəmizin bütün ərazisində keçirilməsinin mühüm tarixi hadisə olduğunu qeyd ediblər. Bunun əyani göstəricisi olaraq Prezidentin ailə üzvləri ilə birlikdə Xankəndi şəhərində yerləşən seçki məntəqəsində səs verməsinin böyük siyasi və rəmzi məna daşıdığını vurğulayıblar.

Namizədlər Prezident İlham Əliyevə möhkəm cansağlığı, Azərbaycanın firavanlığı, yüksəlişi və qlobal aləmdə nüfuzunun daha da güclənməsi yolunda qarşıya qoyduğu bütün hədəflərə çatmağı arzulayaraq, xalqımızın əmin-amanlığı, rifahı və tərəqqisi naminə fəaliyyətində yeni-yeni uğurlar və nailiyyətlər diləyiblər.

Azərbaycan Respublikasının Prezidenti təbriklərə görə təşəkkürünü bildirib. Dövlət başçısı prezident seçkilərində iştirak edən namizədlər arasında konstruktiv dialoqa əsaslanan siyasi mədəniyyətin nümayiş etdirilməsini müsbət qiymətləndirərək seçkiqabağı təşviqat prosesi zamanı namizədlər tərəfindən səsləndirilmiş bir sıra təkliflərin nəzərə alınacağını qeyd edib.

Prezident İlham Əliyev seçkilərdə iştirak etmiş namizədlərə gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

# Xankəndidə oxuyacaq tələbələrə təqaüd verilacək




***"Xankəndi şəhərində fəaliyyət göstərəcək Qarabağ Universitetində bakalavr səviyyəsi üzrə 20 ixtisas tədris olunacaq".***

"Unikal" "Report"a istinadən xəbər verir ki, bu barədə elm və təhsil nazirinin müavini İdris İsayev jurnalistlərə açıqlamasında deyib.

Nazir müavini bildirib ki, növbəti mərhələdə 10 istiqamət üzrə ixtisaslar olacaq: "Ali təhsil müəssisəsində mərhələli şəkildə 10 min şəxsin təhsil alması nəzərdə tutulur".

Onun sözlərinə görə, Qarabağ Universitetinin tələbələrinə təqaüd təyin olunacaq. İ.İsayev həmçinin qeyd edib ki, bu universitetin tələbələri üçün yataqxananın olması nəzərdə tutulur: "Ali təhsil müəssisəsində 70 nəfər işçi heyətinin olması planlaşdırılır. Universitetin bir neçə tədris korpusu olacaq. İlk mərhələdə tələbələr dövlət vəsaiti hesabına təhsil alacaqlar".

# Rüfət Aslanlının karyerasını vaxtından əvvəl bitirən səbəblər

## Sabiqlərin izi ilə: Maliyyə Bazarlarına Nəzarət Palatası Direktorlar Şurasının keçmiş sədrinin dəbdəbəli həyatı, bahalı alış-verişləri davam edirmi?

***"Unikal" qəzeti keçmiş məmurların hazırda harada və nə işlə məşğul olduqları barədə silsilə yazıların dərcini davam etdirir. "Sabiqlərin izi ilə" adlandırdığımız həmin silsilədən bugünkü məqaləmiz Maliyyə Bazarlarına Nəzarət Palatası Direktorlar Şurasının keçmiş sədri Rüfət Aslanlı haqqındadır.***

Hazırda 54 yaşı olan Aslanlının karyera yüksəlişi 2001-ci ilin dekabrında başlamışdı. Həmin vaxt Mərkəzi Bankda bəzi vəzifələr tutan Rüfət müəllim nəhayət ki, İdarə Heyətinin üzvü seçilmiş, 2006-cı ildə isə Milli Bankın Baş direktoru vəzifəsinə təyinat almışdı.

2006-cı ilin dekabrında ikinci dəfə Milli Məclisin qərarı ilə Milli Bankın İdarə Heyətinin üzvü seçilən



R.Aslanlı iki ay sonra - 2007-ci ilin fevralında bu dəfə Milli Bankın İdarə Heyəti sədrinin müavini vəzifəsinə təyin edildi. 2008-2016-cı illərdə Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin sədri vəzifəsində çalışdıqdan sonra 2016-cı ilin martında bu dəfə Maliyyə Bazarlarına Nəzarət Palatasının Direktorlar Şurasının sədri postuna təyinat aldı.

Həmin vaxt güman edilirdi ki, R.Aslanlı ölkənin maliyyə bazarlarının tam sağlamlaşdırılması istiqamətində ciddi addımların atılmasına nail olacaq. Onun rəhbəri təyin edildiyi Palatanın vəzifələri də bir növ bundan ibarət idi - qiymətli kağızlar bazarı, investisiya fondları, sığorta, kredit təşkilatları (bank, bank olmayan kredit təşkilatları və poçt rabitəsinin operatoru), valyuta mübadiləsi fəaliyyəti və ödəniş sistemləri sahəsində fəaliyyətin lisenziyalaşdırılmasını, tənzimlənməsini və həmin sahələrə nəzarət sisteminin şəffaflığını və çevikliyini təmin etmək!

Lakin gözləntilər özünü doğrultmadı. Elə bunun nəticəsidir ki, cəmi 3 il sonra, 2019-cu ilin noyabrında adıçəkilən qurum ləğv edildi. Aslanlının özü isə vəzifəsini hələ 1 il öncədən itirmişdi. Belə ki, 2018-ci ilin oktyabrında Palatanın Direktorlar Şurası ləğv olunmuş, əvəzində İdarə Heyəti yaradılmış, Baş icraçı direktor, onun iki müavini və digər altı nəfər üzvdən ibarət həmin İdarə Heyətində isə qurumun sabiq rəhbəri yer almamışdı.

Bəs R.Aslanlının sürətli karyera yüksəlişinin erkən bitməsinə səbəb nə idi?

Məsələ burasındadır ki, 2010-cu illərin ortalarından başlayaraq media səhifələrini onun haqqında neqativ məzmunlu xəbərlər bəzəyirdi. Bildirilirdi ki, R.Aslanlı zaman keçdikcə dəbdəbəyə meylli məmurlardan birinə çevrilib. Onun adı dəfələrlə müxtəlif korrupsiya qalmaqallarında hallanırdı. Bundan başqa, Rüfət müəllimin bahalı saat və avtomobil kolleksiyaları haqda mətbuatda geniş materiallar dərc olunurdu. Həmin materiallardan belə aydınlaşırdı ki, sabiq Palata rəhbəri çox dəbdəbəli həyat tərzi keçirib, dəyəri fantastik məbləğlərlə ölçülən aksesuarlara, əyləncə və gəzintilərə külli miqdarda pullar xərcləyib. Məsələn, R.Aslanlının Londonda bir hoteldə qalmağa minlərlə funtsterlinq xərclədiyi ortaya çıxmışdı. İddia edilirdi ki, 2016-cı ilin avqust-oktyabr aylarında Palata rəhbəri olaraq o, Londonun "Windzor Suite" hotelində qalmağa bir dəfə 3600, ikinci dəfə isə 4300 funtsterlinq pul xərcləyib. Ödənişləri isə özünün "Lloyds Bank PLC"dəki hesabından icra edib.

Bundan əlavə, R.Aslanlı Beynəlxalq Bankın sabiq direktoru Cahangir Hacıyevin xanımı Zamirə Hacıyevanın bazarlıq etdiyi "Harrods" adlı ticarət mərkəzindən böyük məbləğdə alver etdiyi də iddia olunurdu. Deyilənlərə görə, 2016-cı ilin 2 sentyabr tarixində onun kart hesabından həmin ticarət mərkəzi üçün 31 min 435,15 dollar çıxılmışdı. Elə həmin gün ticarət mərkəzində R.Aslanlının daha 40 min 561 dollar xərclədiyi bildirilirdi.

Habelə, 2017-ci ilin yanvarında onun İsveçrədəki "Michaud Verbier SA" cəvahirat mağazasından bir gündə 104 min 545,44 dollarlıq alış-veriş etdiyi barədə iddialar da cəmiyyətdə geniş əks-səda doğurmuşdu.

Sabiq Palata rəhbəri özü haqqında bu səpkili çox sayda iddiaları səssiz qarşılayır, onları nə təsdiq, nə də təkzib edirdi.

R.Aslanlı vəzifəsini itirdikdən bir müddət sonra bu dəfə KİV-də onun ölkə hüdudlarını tərk etməsinə qadağa qoyulduğu xəbəri yayıldı. Həmin vaxt etibarlı mənbələrə istinadən məlumat yayan virtualaz.org bildirirdi ki, keçmiş məmur Bakı aeroportunda sənədlərin yoxlanılması üçün saxlanılıb. Rüfət Aslanlı Yaponiyaya uçmağa hazırlaşırmış. Aslanlıya xəbərdarlıq edilib ki, onun Azərbaycanın hüdudlarından kənara çıxmasına qadağa qoyulub.

Bu xəbərin ardınca sabiq Palata rəhbəri barədə fəaliyyət dövrü ilə bağlı araşdırmalara başlandığı iddiaları ortaya atıldı. Vurğulanırdı ki, araşdırmalar R.Aslanlının Maliyyə Bazarlarına Nəzarət Palatasına rəhbərlik etdiyi dövrdə yol verdiyi ciddi nöqsanlarla bağlı aparılır. Rüfət müəllimlə bağlı sonradan isə nə bu istiqamətdə yeni bir xəbərlə qarşılaşdıq, nə də Aslanlı ictimaiyyət arasında görən tapıldı. Onun hazırda harada olduğu və nə iş gördüyü barədə məlumat yoxdur. Sadəcə 3 il öncə xəbər çıxdı ki, İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti "Urgula Advisory" MMC-ni dövlət qeydiyyatına alıb. Yeni şirkətin hüquqi ünvanı Bakı şəhəri, Nəsimi rayonu, Cəlil Məmmədquluzadə küçəsi, 196, nizamnamə kapitalı 100 manat, qanuni təmsilçisi isə Rüfət Cəbrayıl oğlu Aslanlıdır. Aydınlaşdı ki, bu, adi adsoyad eyniliyi deyil, söhbət məhz Maliyyə Bazarlarına Nəzarət Palatasının Direktorlar Şurasının sabiq sədrindən gedir.

Beləliklə, güman etmək olar ki, R.Aslanlı hazırda biznes fəaliyyəti ilə məşğuldur, lakin bir suala dəqiq cavab vermək çətindir: keçmiş Palata rəhbəri onun karyerasına vaxtından əvvəl son qoyan dəbdəbəli həyatını, bahalı alış-verişlərini yenə davam etdirir, ya yox?!

***Toğrul Əliyev***

05_27 IYUl-QARA.qxd 2/8/2024 9:52 PM Page 4



# "Biz bütün dünyaya göstərdik ki, normal seçki keçirə bilirik" - Koalisiyadan seçki dəyərləndirməsi

***"Mənim səsim" Seçki Monitorinq Koalisiyası fevralın 7-də keçirilən növbədənkənar prezident seçkilərində apardığı müşahidənin nəticələrini açıqlayıb.***

"Unikal" xəbər verir ki, koalisiya üzvləri müşahidə nəticələrinə dair brifinq keçirib. "İnsan Hüquqları və Qanunçuluğun Müdafiəsi" İctimai Birliyinin sədri Səidə Qocamanlı deyib ki, seçkilərdə iştirakdan imtina etmiş bir sıra siyasi partiyaların ötən gün "yerli səviyyədə seçkiləri müşahidə işi ilə illərdir peşəkarcasına məşğul olan QHT-lərin bu seçkini müşahidə etməsinə imkan yaradılmaması" barədə bəyanatları siyasi cəfəngiyyatdır.

O bildirib ki, "Mənim səsim" Seçki Monitorinq Koalisiyası özündə 3 QHT-ni birləşdirir: "Bizlər Azərbaycanın dövlət müstəqilliyini bərpa etməsindən sonra keçirilmiş bütün seçkiləri monitorinq etmişik. Bundan başqa, 7 fevral seçkilərini QHT-lərdən, vətəndaş cəmiyyətindən rekord sayda müşahidəçi izləyib. Prosesdə 83 QHT-nin 7000 nəfərə yaxın seçki müşahidəçisi yer alıb. Ötən



prezident seçkiləri ilə müqayisədə QHT-lərdən olan ümumrespublika müşahidəçilərinin sayı təxminən 4 dəfə artıb".

S.Qocamanlı qeyd edib ki, müşahidəçilər sırasında müxtəlif QHT-lərin yaratdığı koalisiyalar da mövcud olub, onlar ictimai nəzarəti təmin edib: "Bu koalisiyalarda birləşən 9 QHT ümumilikdə 1700-ə yaxın seçki müşahidəçisi ilə prosesə qatılıb. Bundan başqa, çoxlu sayda ayrı-ayrı QHT-lər respublika üzrə seçki müşahidəçiliyi aparıb.

Seçki günü 67 seçki dairəsi üzrə məntəqələrdə gördüklərimiz əsasında əminliklə deyə bilərik ki, 7 fevral 2024-cü il növbədənkənar Prezident seçkiləri ölkədə demokratiyanın, siyasi mədəniyyətin inkişafı baxımından irəliyə doğru atılmış böyük addımdır. Seçki azad, ədalətli və şəffaf olub. Seçicilərdə seçkilərdə iştirakla bağlı görünməmiş yüksək motivasiya, xoş əhval-ruhiyyə, sıra, növbə mədəniyyəti müşahidə olunub. Ailə üzvləri birgə seçkiyə qatılanlar çoxluq təşkil edib".

Koalisiyanın digər üzvü Novella Cəfəroğlu isə qeyd edib ki, 500-dən çox müşahidəçi ilə məntəqələrdə müşahidələr aparıblar: "Müxtəlif məntəqələrdəki müşahidəçilərdən aldığımız məlumatlardan məlum oldu ki, seçkilər nizam-intizamla keçirilib. Qayda pozuntusuna rast gəlinməyib", - o bildirib və əlavə edib: "Biz bütün dünyaya göstərdik ki, normal seçki keçirə bilirik".

# Seçki günü Ombudsmana şikayət daxil olmayıb

***Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva fevralın 7-də keçirilmiş növbədənkənar prezident seçkilərində aparılmış müşahidələrlə bağlı mediaya açıqlama verib.***

Ombudsman Aparatından "Unikal"a verilən məlumata görə, açıqlamada Müvəkkil seçkilər zamanı müşahidələrin bütün ölkə üzrə, o cümlədən işğaldan azad edilmiş torpaqlarımızda yaradılmış yeni seçki məntəqələrində də aparıldığını, bu ərazilərdə təşkil edilmiş 26 yeni seçki məntəqəsində vətəndaşların seçki hüquqlarının həyata keçirilməsi üçün qanunvericiliklə nəzərdə tutulmuş lazımi şəraitin yaradıldığının müşahidə olunduğunu bildirib.

Qeyd edilib ki, əvvəlki illərdəki müsbət təcrübə nəzərə alınaraq, Müvəkkil, Ombudsman təsisatının və Naxçıvan Muxtar Respublikasının Ombudsman Aparatının ümumilikdə 72 nəfər əməkdaşı növbədənkənar prezident seçkilərində müşahidəçi qismində respublika üzrə 115 seçki dairəsinin 885 seçki məntəqəsində - Bakıda və ölkəmizin digər 41 şəhər-rayonlarında, o cümlədən işğaldan azad olunmuş torpaqlarımızda və muxtar respublikada müstəqil olaraq, özlərinin təşəbbüsü ilə müşahidələr aparıblar. Müşahidələr, həmçinin Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində, Heydər Əliyev adına Hərbi İnstitutda və 16 penitensiar müəssisələrdə təşkil olunmuş seçki məntəqələrində də aparılıb.

Açıqlamada bildirilib ki, müşahidələr zamanı Ombudsman həm məntəqə seçki komissiyalarının üzvləri, həm də müşahidəçilər və seçicilərlə bilavasitə görüşüb, səsvermə prosesi ilə bağlı onların rəylərini öyrənib. Pozuntu halları və hər hansı bir dövlət qurumunun, o cümlədən icra hakimiyyəti orqanının nümayəndələri və polis əməkdaşları tərəfindən müdaxilə müşahidə edilməyib.



Səbinə Əliyeva siyasi partiyaları, ictimai birlikləri, qeyri-hökumət təşkilatlarını təmsil edən, eyni zamanda, müstəqil və bitərəf olan müşahidəçilərin nizamla, birbirinə qarşılıqlı hörmət şəraitində bu prosesdə iştirak edərək, öz vəzifələrini səlahiyyətləri çərçivəsində yerinə yetirdiklərini diqqətə çatdırıb. Qeyd edib ki, əlilliyi olan seçicilər üçün həmin hüquqların həyata keçirilməsi ilə bağlı şərait yaradılıb. Seçki günü seçki hüquqlarının pozulması ilə bağlı Ombudsmanın ünvanına hər hansı bir şikayət və müraciət daxil olmayıb.

Ombudsman müşahidələrin nəticəsi olaraq, prezident seçkilərinin əhalinin yüksək fəallığı şəraitində, demokratik, azad, şəffaf, ədalətli, seçki qanunvericiliyi və beynəlxalq standartlarla müəyyən edilmiş qaydada, nizam-intizamla keçirildiyini bildirib.

Növbədənkənar prezident seçkiləri ərəfəsində həyata keçirilmiş fəaliyyət barədə də məlumat verən Müvəkkil Ombudsman təsisatı və Mərkəzi Seçki Komissiyası tərəfindən Bakıda, Gəncədə, Şəkidə, Masallıda, Qubada və Naxçıvanda "Vətəndaşların seçki hüququnun təmini" mövzusunda silsilə maarifləndirmə tədbirlərinin təşkil olunduğunu qeyd edib. Səbinə Əliyeva bildirib ki, seçkilərin təyin edilməsi haqqında qərarın rəsmi elan edildiyi gündən başlayaraq, yerlərdə seçki təbliğatının aparılması üçün müəyyən edilən açıq və qapalı yerlərdə müşahidələr aparılıb, vətəndaşların seçki hüququnun təmini, seçki qanunvericiliyinin tələblərinin icrası vəziyyəti dəyərləndirilib. Sevindirici haldır ki, dövlət həyatında mühüm əhəmiyyət kəsb edən prezident seçkiləri ilk dəfə olaraq suveren ölkəmizin bütün ərazilərində, o cümlədən işğaldan azad olunmuş torpaqlarımızda keçirilib.

Yekunda Müvəkkil növbədənkənar prezident seçkilərində vətəndaşların təməl hüququ olan seçki hüququnun yüksək səviyyədə təmin olunduğunu qeyd edib.



# Britaniya səfiri İlham Əliyevi təbrik etdi

***Böyük Britaniya səfiri Prezident İlham Əliyevi seçkilərdə qələbə münasibətilə təbrik edib.***

"Unikal" xəbər verir ki, səfir Fergus Auld bununla bağlı "X" platformasında paylaşım edib. "Prezident Əliyevi seçkilərdə qalib olması münasibətilə təbrik edirəm. Böyük Britaniya yaxın tərəfdaş kimi, Azərbaycanı Ermənistanla sülh sazişi bağlamaq üçün bu fürsətdən istifadə etməyə təşviq edir.

Biz uğurlu COP29-un həyata keçirilməsində Azərbaycana dəstək olmaqdan məmnunuq", - diplomat qeyd edib.

# Seçkidə yaşlı insanlar fəal iştirak ediblər - BAMF

***Beynəlxalq Avrasiya Mətbuat Fondu (BAMF) növbədənkənar prezident seçkilərində müşahidəçilik fəaliyyətinin yekunlarına dair açıqlama yayıb.***

"Unikal" xəbər verir ki, seçkiyə qədərki dövrdə BAMF bir neçə dəfə paytaxt Bakıda və regionlarda müşahidəçilərlə görüşlər keçirib və onlar üçün təlimlər təşkil edib.

Seçki günü BAMF-ın müşahidəçilik missiyası seçkilər yekunlaşanadək aktiv fəaliyyətdə olub. Müşahidəçi heyət üzvləri ümumilikdə 22 fərqli dairə olmaqla, 38 məntəqədə səsvermə prosesini izləyiblər. Əlli nəfərlik heyətdən 10 nəfəri işğaldan azad olunmuş ərazilərdə - Xankəndi, Şuşa, Füzuli, Xocalı və Ağdərədə müşahidəçilik missiyasını yerinə yetirib.

Müşahidəçilər seçki günü sona qədər prosesləri izləyib və məntəqlər üzrə qeydlərini aparıblar. Əvvəlki seçkilərdən fərqli olaraq, bu dəfə seçicilərin fəallığı nəzərəçarpacaq dərəcədə yüksək olub. Müşahidələr onu göstərir ki, əksər məntəqələrdə 85-90 faizə qədər seçici fəallığı izlənilib. Bu fəallıq xüsusilə məcburi köçkün qəsəbələrində və işğaldan azad olunmuş ərazilərdə yerləşən məntəqələrdə müşahidə edilib.

Müşahidəçilərin qeydlərinə əsasən, seçki prosesi son dərəcə şəffaf və obyektiv şəkildə keçirilib. Həm müşahidəçilərin, həm də medianın fəaliyyətinə lazımi şərait yaradılıb və hər şey göz önündə olub.

Məntəqələrin açılışı, seçkinin yekunlaşması və səslərin hesablanması prosesləri müşahidəçilər tərəfindən rahatlıqla izlənilib.

Seçki prosesi zamanı seçkilərin nəticələrinə təsir edəcək heç bir qayda pozuntusu aşkarlanmayıb. Müşahidəçilərin qeydlərinə əsasən, yalnız kiçik və seçki prosesinə təsir etməyən yanlışlıqlara yol verilib. Seçkilərin ilk dəqiqələrindən etibarən seçicilər arasında əsasən qadınların və yaşlı insanların fəal iştirakı müşahidə olunub.

05_27 IYUI-QARA.qxd 2/8/2024 9:52 PM Page 5



# "Xankəndidə səsvermənin böyük siyasi və rəmzi mənası var" - İlham Əliyev

***Fevralın 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan-Türkiyə parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrımın başçılıq etdiyi Türkiyə Böyük Millət Məclisinin üzvlərindən ibarət nümayəndə heyətini qəbul edib.***

"Unikal" xəbər verir ki, Prezident İlham Əliyev seçkiləri müşahidə etdiklərinə görə nümayəndə heyətinə minnətdarlığını bildirib. Şamil Ayrım nümayəndə heyəti adından çıxış edərək dövlət başçısını prezident seçkilərində inamlı qələbəsi münasibətilə təbrik etdi. Qonaq Prezident İlham Əliyevin və Prezident Rəcəb Tayyib Ərdoğanın səmimi dostluğunun və qardaşlığının ölkələrimiz arasında əlaqələrin inkişafında xüsusi rolunu vurğuladı.

Dövlət başçısı seçkilərdə qazandığı qələbə münasibətilə Rəcəb Tayyib Ərdoğanın ona təbrik məktubu göndərdiyini və Türkiyə Prezidenti ilə telefonla danışdıqlarını məmnunluqla qeyd etdi.

Şamil Ayrım Prezident İlham Əliyevin və ailə üzvlərinin Xankəndidə səs vermələrinin böyük



əhəmiyyət daşıdığını bildirdi.

Dövlət başçısı da Xankəndidə səsvermənin böyük siyasi və rəmzi mənasının olduğunu vurğuladı.

Şamil Ayrım 44 günlük Vətən müharibəsində və antiterror əməliyyatında Prezident İlham Əliyevin və Azərbaycanın dünyaya bir nümunə göstərdiyini qeyd etdi. Ümummilli Lider Heydər Əliyevin vəsiyyətinin dövlətimizin başçısı tərəfindən yerinə yetirildiyini deyən qonaq vurğuladı ki, Azərbaycan xalqı ilk dəfə olaraq bu seçkilərdə ərazi bütövlüyü və suverenliyi təmin olunmuş şəkildə qürurla iştirak edib.

Azərbaycan Prezident Vətən müharibəsində Qələbədə Prezident Rəcəb Tayyib Ərdoğan başda olmaqla qardaş Türkiyənin mənəvi-siyasi dəstəyinin yüksək qiymətləndirildiyini bir daha qeyd etdi.

Görüşdə Avropa Şurası Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinə qarşı ədalətsizlik vurğulandı, Türkiyə Böyük Millət Məclisinin bunun əleyhinə olduğu və Türkiyə parlamentində də bununla əlaqədar müvafiq bəyanatların və müraciətlərin qəbul olunacağı qeyd edildi, Azərbaycan nümayəndə heyətinin etimadnaməsinin ratifikasiya edilməsinin vacibliyini bildirildi.

Söhbət zamanı Türk Dövlətləri Təşkilatı və Türk Dövlətləri Parlament Assambleyası çərçivəsində əməkdaşlıq məsələlərinə toxunuldu, Türk Dövlətləri Təşkilatında əməkdaşlığın və tərəfdaşlığın daha da dərinləşdirilməsinin önəmi qeyd olundu.

Nümayəndə heyətinin üzvləri Prezident İlham Əliyevin Türk Dövlətləri Təşkilatının daha da inkişafı üçün fəaliyyətini yüksək qiymətləndirdiklərini dedilər.

# Nazir braziliyalı senatorlarla görüşdü

***Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin müşahidəsi məqsədilə ölkəmizdə səfərdə olan Braziliya Federal Senatında Braziliya-Azərbaycan Dostluq Qrupunun rəhbəri Senator Nelsinyo Tradın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***

Bu barədə "Unikal"a Xarici İşlər Nazirliyindən məlumat verilib.

Bildirilib ki, görüş zamanı Azərbaycan və Braziliya arasında ikitərəfli və çoxtərəfli əməkdaşlığın genişləndirilməsi perspektivləri, artan siyasi təmaslar və ikitərəfli məsləhətləşmələr mexanizmi üzrə planlar



müzakirə olunub. Azərbaycan Respublikası Hökuməti ilə Braziliya Federativ Respublikası Hökuməti arasında Ticarət və İnvestisiya Əməkdaşlığı üzrə Birgə İşçi Qrupunun növbəti görüşünə hazırlığın əhəmiyyəti diqqətə çatdırılıb.

C.Bayramov müstəqillik tariximizdə ilk dəfə olaraq əzizi bütövlüyümüz və suverenliyimizin tam bərpa olunduğu dövrə təsadüf edən növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin ölkəmiz üçün xüsusi əhəmiyyət daşıdığını qeyd edib.

Görüşdə həmçinin bu il ölkəmizin ev sahibliyi etdiyi BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) ikitərəfli əlaqələrin inkişafı, habelə COP30-u keçirən ölkə kimi Braziliya ilə əlaqələndirmə işlərinin genişləndirilməsi baxımından əhəmiyyəti vurğulanıb.

Görüş zamanı həmçinin qarşılıqlı maraq doğuran digər ikitərəfli və regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Emin Əmrullayev "Yüksəliş"in qalibləri ilə görüşdü

***Elm və təhsil naziri Emin Əmrullayev üçüncü "Yüksəliş" müsabiqəsinin qalibləri İlahə Baxışova Tahirli və Rəsul Həşimovla görüşüb.***

"Unikal" xəbər verir ki, bu barədə nazirlik məlumat yayıb.

Bildirilib ki, mentorluq proqramı çərçivəsində keçirilən görüş zamanı nazir qalibləri təbrik edib və mentor olaraq birillik fərdi inkişaf planı əsasında onlarla təcrübəsini bölüşəcəyini, həmçinin potensiallarını üzə çıxarmağa dəstək olacağını bildirib.

Görüşdə Emin Əmrullayev qalibləri Elm və Təhsil Nazirliyinin fəaliyyəti, gələcək inkişaf hədəfləri barədə məlumatlandırıb. Nazir son illərdə aparılan təhsil islahatları və bu sahədə inkişafa dəstək olacaq işlər barədə qaliblərin fikirlərini dinləyib.

Üçüncü "Yüksəliş" müsabiqəsinin qalibləri isə öz növbələrində təşəkkür edərək mentorluq proqramı çərçivəsində Emin Əmrullayevin şəxsi təcrübəsindən faydalanmaqdan məmnunluqlarını bildiriblər.

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2000

# Mişel İlham Əliyevi təbrik etdi

***Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel X sosial şəbəkəsindəki səhifəsində İlham Əliyevə yenidən Azərbaycan prezidenti seçilməsi ilə bağlı müraciət edib.***



"Unikal" xəbər verir ki, o, "İlham Əliyevi yenidən Azərbaycan Prezidenti seçilməsi münasibətilə təbrik edib və onun yeni mandatı ilə bağlı ən xoş arzularını çatdırıb.

Biz həmçinin Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələri və əməkdaşlığı, o cümlədən enerji sektorunu müzakirə etdik", - Şarl Mişel qeyd edib.

# "O, tarixə Qalib İlham kimi düşəcək" - Saakaşvili



***"Qalibiyyət münasibəti ilə İlham Əliyevi təbrik edirəm".***

"Unikal" xəbər verir ki, bunu Gürcüstanın keçmiş prezidenti Mixail Saakaşvili sosial şəbəkə hesabında yazıb.

"Prezident İlham Əliyevin etdiklərini Azərbaycan üçün heç kəs, heç bir zaman etməyib. O, tarixə Qalib İlham kimi düşəcək və onun prezidentlik illəri isə Azərbaycan tarixində qızıl dövr kimi yazılacaqdır", - deyə Saakaşvili rus, Azərbaycan və gürcü dillərində yazıb.

# Bakı ilə müttəfiqlik münasibətlərinə böyük əhəmiyyət veririk - Putin

***Bakı ilə müttəfiqlik münasibətlərinə böyük əhəmiyyət veririk.***



"Unikal" xəbər verir ki, bunu Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə ünvanladığı təbrik məktubunda bildirib.

"Əminəm ki, bütün sahələrdə səmərəli ikitərəfli əməkdaşlığın, beynəlxalq gündəliyin aktual məsələlərinin həllində tərəfdaşlıq qarşılıqlı əlaqələrinin genişləndirilməsi üzrə fəal birgə işi davam etdirəcəyik. Şübhəsiz ki, bu iş dost xalqlarımızın maraqlarına cavab verir, Cənubi Qafqazda və Xəzər regionunda sabitliyin, təhlükəsizliyin gücləndirilməsi istiqamətində gedir" - Rusiya Prezidenti qeyd edib.

# Sağlamlıq imkanları məhdud şəxslər üçün xüsusi təhsilin dövlət standartları təstiqlədi

***Sağlamlıq imkanları məhdud olan şəxslərin təhsili üçün xüsusi təhsilin dövlət standartları təsdiqlənib.***

"Unikal" xəbər verir ki, Nazirlər Kabineti bununla bağlı müvafiq qərar verib.

Standartlarda xüsusi təhsilin məzmununa dair tələblər, xüsusi təhsilin idarə olunması, təhsil müəssisəsinin maddi-texniki bazası, infrastrukturu ilə bağlı məsələlər, təhsilin təşkili formaları və normativləri, eləcə də təhsilalanların nailiyyətlərinin qiymətləndirilməsi növləri əks olunub.

Dövlət standartları aşağıdakıları müəyyən edir:
- xüsusi təhsilin məzmununu;
- xüsusi təhsilin idarə olunmasını;
- xüsusi təhsilin maddi-texniki və tədris bazasını;
- xüsusi təhsilin infrastrukturunu;
- xüsusi təhsildə təhsilverənlərin keyfiyyət göstəricilərini;
- xüsusi təhsilin təşkilini;
- təhsilalanların nailiyyətlərinin qiymətləndirilməsini.

Dövlət standartları mülkiyyət formasından asılı olmayaraq xüsusi təhsili həyata keçirən müəssisələr üçün məcburidir. Dövlət standartları təhsil müəssisələri üçün tədris planlarının və təhsilalanlar üçün fərdi tədris planlarının hazırlan masında əsas götürülür.

Dövlət standartları 5 il müddətinə qüvvədədir.

05_27 IYUl-QARA.qxd 2/8/2024 9:52 PM Page 6



# Dünya liderlərindən İlham Əliyevə qələbə təbrikləri

***Fevralın 7-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.***

"Unikal" xəbər verir ki, Türkiyə Prezidenti İlham Əliyevi prezident seçkilərində inamlı qələbə qazanması münasibətilə səmimi-qəlbdən təbrik edib, ölkəmizin daha da inkişaf etdirilməsi və xalqımızın rifahı naminə prezidentlik fəaliyyətində ona yeni uğurlar arzulayıb. Rəcəb Tayyib Ərdoğan dövlətimizin başçısının rəhbərliyi ilə Vətən müharibəsində Azərbaycanın qələbə çalmasının və suverenliyimizin tam bərpa olunmasının böyük önəm daşıdığını bir daha vurğulayıb, bu xüsusda Azərbaycanda prezident seçkilərinin bütün ölkə ərazisində keçirilməsi münasibətilə də təbriklərini çatdırıb. Dövlətimizin başçısı göstərilən diqqətə və təbrikə görə təşəkkürünü bildirib. Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan Azərbaycan-Türkiyə dostluq, qardaşlıq və strateji müttəfiqlik münasibətlərinin bütün sahələrdə gələcəkdə də inkişaf edəcəyinə və möhkəmlənəcəyinə, "bir millət, iki dövlət" prinsipi əsasında ölkələrimizin və xalqlarımızın bundan sonra da çiyin-çiyinə irəli gedəcəklərinə əminliklərini ifadə ediblər. Telefon söhbəti zamanı əməkdaşlığımızın perspektivləri barədə fikir mübadiləsi aparılıb.

Fevralın 8-də Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib. Vladimir Putin İlham Əliyevə prezident seçkilərində qələbəsi münasibətilə təbriklərini çatdırıb, ona Azərbaycanın inkişafı və xalqımızın firavanlığı naminə prezidentlik fəaliyyətində uğurlar arzulayıb.

Prezident İlham Əliyev göstərilən diqqətə və təbrikə görə Vladimir Putinə minnətdarlığını ifadə edib. Dövlət başçıları müttəfiqlik və strateji tərəfdaşlıq əlaqələrimizin müxtəlif sahələrdə bundan sonra da inkişaf edəcəyinə əminliklərini bildirib, əməkdaşlığın perspektivləri ilə bağlı məsələləri müzakirə ediblər.

Azərbaycan Prezidenti İlham Əliyevi yenidən seçilməsi münasibətilə təbrik edir, Azərbaycan xalqının rifahı naminə davamlı uğurlar və məhsuldar fəaliyyət arzulayıram.

Bunu Ukrayna Prezidenti Vladimir Zelenski "X" platformasındakı səhifəsində bildirib."Mən dövlətlərimizin suverenliyi və ərazi bütövlüyünə qarşılıqlı dəstəyi yüksək qiymətləndirirəm. Bu tarixi dövrdə ölkəmizin azadlıq mübarizəsində Azərbaycanın göstərdiyi humanitar və digər yardımları yüksək qiymətləndiririk. Prezident Əliyevlə konstruktiv və etibarlı münasibətlərimizi, eləcə də komandalarımız arasında praktik əməkdaşlığı yüksək qiymətləndirirəm. Əminəm ki, Ukrayna ilə Azərbaycanın strateji əlaqələri bundan sonra da möhkəmlənəcək" - Zelenski qeyd edib.

Fevralın 8-də Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Bu barədə Azərbaycan Prezidentinin Mətbuat Xidməti məlumat yayıb. Qazaxıstanın dövlət başçısı İlham Əliyevi prezident seçkilərində inamlı qələbəsi münasibətilə təbrik edib, ona ölkəmizin hərtərəfli inkişafı və tərəqqisi naminə fəaliyyətində uğurlar arzulayıb. Kasım-Jomart Tokayev dövlətimizin başçısının rəhbərliyi ilə Azərbaycanın bütün sahələrdə böyük uğurlar qazanması və ölkəmizin beynəlxalq mövqelərinin daha da möhkəmlənməsinin önəmini qeyd edib. Prezident İlham Əliyev göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirib. Dövlət başçıları Azərbaycan-Qazaxıstan dostluq və qardaşlıq münasibətlərinin bundan sonra da möhkəmlənəcəyinə əminliklərini ifadə edərək, əməkdaşlığımızın perspektivləri ətrafında fikir mübadiləsi aparıblar.

Venesuela Bolivar Respublikasının Prezidenti Nikolas Maduro Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi növbədənkənar prezident seçkilərində qazandığı inamlı qələbə münasibətilə təbrik edib.

N.Maduro bununla bağlı sosial şəbəkə hesabında paylaşım edib. Paylaşımda deyilir: "Azərbaycan xalqını və onun yenidən seçilmiş Prezident İlham Əliyevi təbrik edirəm. Liderliyiniz, müdrikliyiniz və humanistliyiniz sayəsində nəcib xalqınızı inkişaf və tərəqqi yolunda irəliyə aparmaqda davam edəcəksiniz. Daha yeni zirvələrə doğru irəli! Yaşasın Azərbaycan!".

Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev Azərbaycan Prezidenti İlham Əliyevi təbrik edib.

Təbrikdə deyilir: Hörmətli İlham Heydər oğlu, əziz Qardaşım. Azərbaycan Respublikasında yüksək səviyyədə keçirilən prezident seçkilərində inamlı qələbəniz münasibətilə Sizi - əziz Qardaşımı səmimi-qəlbdən təbrik edir, ən xoş arzularımı bildirməkdən sonsuz məmnunluq duyuram. Bu seçkilərdə Sizin namizədliyinizin əhali tərəfindən hərtərəfli dəstəklənməsi xalqınızın irəli sürdüyünüz strateji proqram və planlara sonsuz inamının əyani təzahürüdür. Bu, ilk növbədə, Azərbaycanın ərazi bütövlüyünün tam bərpası və tarixi ədalətin bərqərar olması, ölkənizdə bütün sahələrdə aparılan genişmiqyaslı islahatlar və böyük quruculuq işləri ilə bilavasitə bağlıdır desəm, əsl həqiqəti ifadə etmiş olaram. Bu gün Sizin - öz xalqının həqiqi müdrik liderinin, vətənpərvər və fədakar, görkəmli siyasi xadiminin rəhbərliyi ilə Azərbaycan dövləti şanlı zirvələri fəth edir və onun beynəlxalq arenada nüfuzu, etibarı getdikcə artmaqdadır. Heç şübhəsiz, Sizin bu yüksək vəzifədə fəaliyyətiniz dövlətçiliyin əsaslarının hərtərəfli möhkəmlənməsinə və cəmiyyətin müasirləşməsinə, əhalinin həyat səviyyəsinin daha da yüksəlməsinə, ölkənin sosial-iqtisadi inkişafının təmin olunmasına xidmət edəcəkdir. Əziz qardaşım, bu məqamda xüsusi qeyd etmək istərdim ki, son illərdə bizim ali səviyyədə fəal təmaslarımız və aramızda olan sıx qardaşlıq münasibətlərimiz, həyata keçirilən konkret layihələr və "yol xəritələri" qarşılıqlı faydalı əlaqələrimizə güclü təkan verir. Sizinlə razılaşdığımız kimi, Özbəkistan və Azərbaycan arasında çoxtərəfli əlaqələrin sürətli inkişafı ili elan edilən cari il ərzində daha on yeni sahə üzrə, o cümlədən kimya, neft-qaz, mədənçıxarma, energetika, elektrotexnika, zərgərlik, maşınqayırma, əczaçılıq, tikinti materialları və bank-maliyyə sahələrində əməkdaşlığın möhkəmləndirilməsinə yönəlmiş böyük planlarımızın tam şəkildə həyata keçiriləcəyinə inanıram. Əminəm ki, qəti siyasi iradəmiz və birgə səylərimiz sayəsində uzunmüddətli strateji tərəfdaşlığımız qardaş xalqlarımızın ümumi rifahı naminə bundan sonra da səmərəli şəkildə inkişaf edəcəkdir. Heç şübhəsiz ki, Zati-alinizin gələcəkdə ölkəmizə həyata keçiriləcək səfəri mövcud potensialımıza və imkanlarımıza uyğun olaraq çoxşaxəli və dostluq əlaqələrimizi tamamilə yeni səviyyəyə ucaldacaqdır. Hörmətli İlham Heydər oğlu, bu mühüm qələbə münasibətilə Sizi bir daha ürəkdən təbrik edir, Sizə möhkəm cansağlığı, tükənməz güc-qüvvət, ailə səadəti, ali dövləti fəaliyyətinizdə böyük uğurlar, qardaş Azərbaycan xalqına isə sülh, əmin-amanlıq və davamlı tərəqqi arzulayıram.

Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko Azərbaycan Prezidenti İlham Əliyevi təbrik edib.

Təbrikdə deyilir: Hörmətli İlham Heydər oğlu. Müstəqillik dövründə ilk dəfə ölkənizin bütün ərazisində keçirilən Azərbaycan Respublikasının Prezidenti seçkilərində inamlı qələbəniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm. Səsvermə zamanı seçicilərin nümayiş etdirdikləri güclü dəstək cəmiyyətin birliyini və Sizin Azərbaycan xalqı arasında yüksək nüfuzunuzu bir daha çox aydın şəkildə təsdiq etdi. İyirmi il ərzində Sizin qətiyyətiniz, yüksək siyasi mədəniyyətiniz, xalqınızın səsini eşitmək bacarığınız sayəsində dünyada rəyi ilə hesablaşılan güclü, müstəqil dövlət qurulmuşdur. İqtisadi tərəqqi və vətəndaşların rifahının yüksəlməsi, ölkənin suverenliyinin möhkəmlənməsi və beynəlxalq aləmdə rolunun artması haqlı olaraq Sizin adınızla bağlıdır. Belarusun timsalında Sizin ədalətli və bərabərhüquqlu dövlətlərarası münasibətlərin qurulmasına, təhlükəsizliyin, dialoqun və etimadın möhkəmləndirilməsinə yanaşmaları bölüşən etibarlı dostunuz vardır. Hörmətli İlham Heydər oğlu, Sizə səmimi-qəlbdən möhkəm cansağlığı və dost Azərbaycan xalqının rifahı naminə bütün planlarınızı həyata keçirmək üçün tükənməz enerji arzulayıram. Sizi qonaqpərvər Belarus torpağında salamlamaqdan həmişə məmnunam.

Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon Azərbaycan Prezidenti İlham Əliyevi təbrik edib.

Təbrikdə deyilir: Hörmətli İlham Heydər oğlu. Azərbaycan Respublikasının Prezidenti seçkilərində inamlı qələbəniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm. Bu münasibətlə ən xoş arzularımı qəbul edin. Qardaş Azərbaycanın ali dövlət vəzifəsinə yenidən seçilməyiniz Azərbaycan cəmiyyətinin Sizə olan yüksək etimadının daha bir inamlı təsdiqidir və ölkənin ardıcıl sosial-iqtisadi inkişafına, həmçinin dövlətinizin beynəlxalq arenada nüfuzunun möhkəmləndirilməsinə yönəlmiş strateji kursunuzun xalqınız tərəfindən geniş şəkildə dəstəklənməsinin göstəricisidir. Sizin Tacikistan-Azərbaycan dostluq və qarşılıqlı faydalı əməkdaşlıq münasibətlərinin möhkəmlənməsinə və dərinləşməsinə sanballı şəxsi töhfənizi vurğulayaraq bu əlaqələrin gələcəkdə də hərtərəfli inkişafına marağımızı ifadə edirəm.

Əminəm ki, biz gələcəkdə də birgə səylərlə iki ölkənin çoxplanlı qarşılıqlı münasibətlərini inkişaf etdirəcəyik, xalqlarımızın rifahı naminə bu əməkdaşlığı yeni praktiki məzmunla zənginləşdirəcəyik. Əziz İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı və təşəbbüslərinizin reallaşdırılmasında yeni böyük uğurlar, qardaş Azərbaycan xalqına isə sülh, əmin-amanlıq və davamlı tərəqqi arzulayıram.





05_27 IYUI-QARA.qxd 2/8/2024 9:52 PM Page 7





## "Bu, hazırkı prezidentə ictimai dəstəyin səviyyəsini xeyli artırdı" - "Euronews"

***"Exit poll"un nəticələrinə əsasən, dünən Azərbaycanda keçirilən növbədənkənar prezident seçkilərində Prezident İlham Əliyev 93,9 faiz, Qarabağda isə demək olar ki, 100 faiz səs qazanıb.***

Bu barədə "Euronews"un saytındakı materialda deyilir. Qeyd edilib ki, bu, Azərbaycanın əvvəllər işğal olunmuş bütün torpaqlarını azad edib, ölkənin bütün suveren ərazisini tam nəzarətə götürməsindən sonra keçirilən ilk seçkilərdir: "Seçki komissiyası nümayəndələrinin sözlərinə görə, seçkidə fəallıq yüksək olub və səsvermənin ilk doqquz saatında səsvermə hüququna malik olanların 70 faizindən çoxu səs verib. Qarabağın tam azad edilməsi və müharibədə qazanılan qələbə hazırkı prezidentə ictimai dəstəyin səviyyəsini xeyli artırdı".

Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev "Euronews"a müsahibəsində qeyd edib ki, müharibə başa çatdıqdan və ərazi bütövlüyü təmin edildikdən sonra ölkə öz inkişafının yeni mərhələsinə qədəm qoyur: "İndi bizim işğaldan azad edilmiş ərazilərin sülh yolu ilə transformasiyası üçün tarixi şansımız var və son məqsədimiz Ermənistanla sülh sazişi imzalamaq, onunla münasibətləri normallaşdırmaqdır. Bu, bütün Cənubi Qafqaz regionunun transformasiyasına daha da böyük təsir göstərəcək".

Onun sözlərinə görə, seçkilərdən sonra Azərbaycan daha da iqtisadi, sosial və siyasi inkişaf dövrünə qədəm qoyur: "Daha da dinc inkişafın təmin edilməsi hökumət və xalq üçün prioritet məsələyə çevrilir və ölkə qarşısında yeni iddialı məqsədlər, arzular dayanır".

O da qeyd edilib ki, Qarabağ və ona bitişik ərazilər Birinci Qarabağ müharibəsi başa çatdıqdan sonra Ermənistanın dəstəklədiyi etnik erməni qüvvələrin nəzarətinə keçib: "Azərbaycan 2020-ci ildə Moskvanın vasitəçiliyi ilə atəşkəslə başa çatan altı həftəlik müharibədə Qarabağın bir hissəsini və əvvəllər işğal olunmuş ərazilərinin böyük hissəsini geri qaytarıb. 2023-cü ilin sentyabrında keçirilən birgünlük lokal antiterror tədbirləri ilə rəsmi Bakı separatçı qüvvələri məğlub edərək onları silahı yerə qoymağa məcbur edib. Separatçıların məğlubiyyətindən sonra 100 mindən çox etnik erməni bölgəni tərk edib".

# "Xalq azad şəkildə öz iradəsini ifadə etdi"

## Azər Badamov: "Siyasətimizi elə qurmalıyıq ki, bizə düşmən gözü ilə baxanlar öz hərəkətlərindən və baxışlarından utansınlar"

***Milli Məclisin deputatı Azər Badamov "Unikal"a müsahibə verib. O, növbədənkənar prezident seçkilərindən, bundan sonrakı dönəmdə olacaq islahatlardan, bu il referendum, parlament seçkilərinin keçirilə biləcəyi ehtimalından və Azərbaycan-Ermənistan arasında sülh müqaviləsinin nə zaman imzalana biləcəyindən danışıb.***

***-Azər müəllim, müstəqil Azərbaycanın tarixində ilk dəfə olaraq seçkilər bütün ölkə ərazisində keçirildi. Prezident seçkilərinin nəticələrinə əsasən, İlham Əliyev seçicilərin 92,05 faizinin səsini qazanaraq seçkilərin qalibi olub. Ölkəmizin bütün suveren ərazisində keçirilən seçkiləri necə qiymətləndirirsiz?***

-Xalqımız 30 illik arzusunun həyata keçdiyinə görə xoşbəxtdir. 44 günlük Vətən müharibəsinə qədər biz həmişə deyirdik ki, gələn il bayrağımızı Şuşada dalğalandıracağıq. Amma Prezident İlham Əliyevin müdrik və uzaqgörən siyasəti sayəsində bayrağımız nəinki Şuşada, eyni zamanda Xankəndində, Xocalıda və bütün ərazilərimizdə dalğalandırıldı. Müstəqilliyimiz tarixində ilk dəfə olaraq işğaldan azad olunmuş ərazilərdə seçki məntəqələri yaradıldı. Keçmiş məcburi köçkünlər uzun illərdən sonra öz ata-baba yurdlarında seçkiyə qatıldılar. Təbii ki, bu hisslər sözlə ifadə olunası sevinc deyil. Prezident İlham Əliyevin liderliyi sayəsində xalqımız, dövlətimiz qalib olub. Ona görə də 7 fevralda heç kimə seçkiyə gedib səs verməyi deməyə ehtiyac yox idi. Səsvermə hüququ olan hər bir vətəndaş seçki günündə məntəqələrə gedib səs verməyi özünün həm mənəvi, həm də vətəndaşlıq borcu olduğunu qeyd edirdi. Ona görə də seçki məntəqələrinin qarşısında izdiham yaşanırdı və insanlar seçki məntəqəsinə daxil olmaq üçün növbədə dayanmışdılar. Belə bir hadisə dünya praktikasında nadir hallarda baş verir. Bu tarixi xalqımız yazdı. Xalq çox azad şəkildə öz iradəsini ifadə etdi. Ona görə də seçkilər çox yüksək nəticələrlə başa çatdı.

***-Bu prezident seçkiləri yeni dövrün başlanğıcıdır. Bundan sonra hansı yeniliklərin və islahatların olacağı gözlənilir?***

-Prezident İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi illərdə dövlətimiz ən böyük tarixi missiyasını yerinə yetirərək böyük bir dövrü sonlandırmış oldu. Ona görə növbədənkənar prezident seçkiləri keçirildi və yeni dövrün başlanğıcında dövlət başçımız xalqdan yenidən etimad almalı idi. 7 fevralda keçirilmiş seçkilərdə dövlət başçımız xalqdan yeni bir siyasi güc aldı. Ona görə bu dövrü yeni hədəflərlə, uğurla başlaya bilərik. Yeni dövrdə isə ölkəmizin daxili və xarici siyasətinə yenidən baxılmalı olduğunu hesab edirəm. Ölkə daxilində islahatların davam etdirilməsi qaçılmazdır. Dövlət idarəetmə strukturlarının fəaliyyəti yeni dövrün tələblərinə uyğunlaşdırılmalıdır. O cümlədən, beynəlxalq siyasətdə də yeni vektorların müəyyənləşdirilməli olduğunu hesab edirəm. Çünki, zəfərimizi həzm edə bilməyən dövlətlər var. Onlarla münasibətlərimizə yenidən baxılmalı və ədalətimizi onlara qəbul etdirməliyik. Siyasətimizi elə qurmalıyıq ki, bizə düşmən gözü ilə baxanlar öz hərəkətlərindən və baxışlarından utansınlar. Bu baxımdan, xalqımızın dövlət başçısına verdiyi siyasi güclə özümüzü beynəlxalq arenada bir daha təsdiq edə biləcəyik. Dünyada dostlarımızın sayı düşmənlərimizdən dəfələrlə çoxdur. Yeni dövrdə elə bir beynəlxalq siyasi kurs aparılmalıdır ki, düşmənlərimiz də ölkəmizə dost gözü ilə baxsınlar. Dövlət başçımıza inanıram. Prezident nəyi, necə və nə zaman etmək lazım olduğunu hamıdan yaxşı bilir.

***-Cari ildə digər seçkilərin də olacağı ilə bağlı fikirlər səsləndirilir. Sizcə, bu il parlament və referendum seçkilərinin olacağı da gözlənilirmi?***

- Bələdiyyə seçkiləri konstitusiyada müəyyən olunmuş vaxtda keçiriləcək. Amma referendum və növbədənkənar parlament seçkilərinin keçirilməsi isə dövlət başçısının səlahiyyətində olan məsələdir. Yuxarıda da qeyd etdim ki, yeni dövrdə islahatların keçirilməsi qaçılmazdır. Amma bu islahatların çərçivəsi necə olmalıdırsa, dövlət başçımız müəyyənləşdirməlidir. Əgər Prezident İlham Əliyev digər seçkilərin keçirilməsini vacib hesab etsə, müvafiq sərəncamlar imzalansa, təbii ki, bütün siyasi proseslər baş tutacaq. Mən bir şeyi deyə bilərəm ki, keçiriləcək hər bir siyasi proses ölkəmizin güclənməsinə, inkişafına, insanların sosial rifahının yaxşılaşmasına və beynəlxalq mövqelərin möhkəmlənməsinə xidmət edəcək.



***-Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin imzalanması ilə bağlı danışıqlarda müəyyən fasilə müşahidə olunur. Bundan sonra danışıqların intensivləşməsi gözlənilirmi?***

-Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanması üçün Ermənistanın görməli olduğu bir sıra məsələlər var. Onlardan biri də onların konstitusiyasının və gerbinin dəyişdirilməsidir. Ermənistanın konstitusiyasında, gerbində Azərbaycana və Türkiyəyə qarşı torpaq iddiaları əks olunub. Necə ola bilər ki, ana qanununda və dövlət rəmzlərində bizə qarşı torpaq iddiaları olduğu halda aramızda sülh müqaviləsi imzalansın. Hətta belə bir sənəd imzalansa, o müddəalar qaldıqca imzalanacaq müqavilə sülhə xidmət etməyəcək. Ona görə də Ermənistan ilk növbədə konstitusiyasına yenidən baxmalıdır. Azərbaycan isə müharibəni bitirdiyi ilk gündən sülh istəyir. Ona görə də 5 baza prinsipi ilə sülh müqaviləsinin imzalanmasını qarşı tərəfə təklif edib. Əgər Ermənistan öz öhdəliyində olan məsələlərə qısa bir zaman ərzində baxarsa, ölkələrimiz arasında sülh müqaviləsinin imzalanması prosesi sürətlənmiş olacaq. Qloballaşan dünyada ölkələrimizə sülh həmişə olduğundan daha çox lazımdır. O cümlədən, Ermənistan üçün Azərbaycanla sülh müqaviləsinin imzalanması həyati əhəmiyyət daşıyır. Hesab edirəm ki, Ermənistanda tezliklə yeni konstitusiya yazılacaq və qəbul olunacaq. 2024-cü ilin böyük yeni siyasi proseslərlə zəngin olacağını hesab edirəm.

***Anar Kəlbiyev***

# Elman Rüstəmovun adı yeni qalmaqala qarışdı

## Sabiq baş bankirlə 2,5 milyon manatlıq qanunsuz kreditin nə əlaqəsi var?

***Ötən sayımızda xəbər verdiyimiz kimi, Azərbaycanda bankın rəsmi gəliri cüzi olan vətəndaşa külli miqdarda istehlak krediti verdiyi məlum olmuşdu. Belə ki, AZAL-ın sabiq "şef"i Cahangir Əsgərovun həyat yoldaşı Zərifə Əsgərovanın əsas səhmdarı olduğu "Premium Bank" 2013-cü ildə rəsmi gəliri olmayan və ya 1000 manata kimi olan vətəndaşa 2,5 mln. manat məbləğində kredit verib. Bu müddət ərzində vətəndaş hər ay yalnız faizləri ödəməli olub. Ekspertlər bunu şübhəli hal kimi qiymətləndiriblər.***

Sözügedən kredit qalmaqalı ətrafında müzakirələr davam edərkən bank məsələləri üzrə ekspert Əkrəm Həsənov ilginc iddialar səsləndirib. Onun sözlərinə görə, 2010-cu ildə Nizami Kərimov adlı vətəndaş yeni tikilən binada "Aqana Servis" şirkətindən qeyri-yaşayış sahəsi alıb. Hazırda həmin sahə "Metropol" restoranı kimi fəaliyyət göstərir: "Şirkətin sahibi Azad Nağıyev həmin sahəni qanunsuz olaraq qohumunun adına rəsmiləşdirib girov qoyaraq 2013-cü ildə "Premium Bank" vasitəsilə faktiki olaraq Mərkəzi Bankdan 2,5 mln manat məbləğində kredit götürüb. Əslində, iddia edir ki, krediti o yox, tikintidə şəriki olan Elman Rüstəmov (o cümlədən, Rəşad adlı xalası oğlu) götürüb... Hər bir halda ortada olan odur ki, "Premium Bank" Mərkəzi Bankdan 5,25%-lə 2,5 mln manat kredit götürüb və dərhal da onu 6,25%-lə normal rəsmi gəliri olmayan Nağıyevə verib (Kərimova məxsus restoranı qanunsuz girov qoymaqla). Kreditin təyinatı kimi "maliyyə ehtiyaclarının qarşılanması" göstərilib. Yəni əslində kreditin heç bir təyinatı olmayıb, çünki göstərilən "təyinat" amorfdur. Kredit müddəti ərzində də Nağıyev yalnız faizləri ödəməli imiş, əsas borcu isə sonda. Bir müddət faizlər ödənilib, sonra dayandırılıb və kreditin qaytarılmasını tələb etmək əvəzinə Mərkəzi Bank faiz dərəcəsini 3,7%-ə, "Premium Bank" isə 4,7%-ə endirərək müddəti uzadıblar.

Lakin sonradan restoranın mülkiyyətçisi Kərimov məsələdən hali olub və məhkəməyə müraciət edərək əmlakı qanunsuz mənimsəmiş şəxsin adından çıxartdırıb. Bununla belə, "Premium Bank"ın və Mərkəzi Bankın həmin əmlaka girov (ipoteka) hüququ hələ də ləğv olunmayıb. Onlar deyirlər ki, guya əmlakın Kərimova məxsus olmasını bilmirdilər. Hazırda bununla bağlı Yasamal rayon məhkəməsində proses gedir: "Premium Bank" və Mərkəzi Bank qanunsuz verdikləri kreditin müqabilində Kərimovun əmlakını əlindən almaq istəyirlər. Yeri gəlmişkən, Elman Rüstəmov da Mərkəzi Bankın sədri olduğu son dövrdə şəriki Nağıyevin azadlıqdan məhrum olunmasına nail olub. İndi də hər şeyi Nağıyevin üstünə atırlar. Nağıyev isə məhkəmədə iştirak imkanından belə məhrumdur".

Bəs bu kreditin verilməsi niyə qanunsuz olub? Məsələ burasındadır ki, həmin vaxt Mərkəzi Bankın təsdiqlədiyi "Banklarda kreditlərin verilməsi Qaydaları" qüvvədə idi. Həmin Qaydaların 3-cü bəndinə əsasən "Premium Bank" kreditin məqsədi və ödənişlərin mənbəyini müəyyənləşdirməli, 4.1.8-ci bəndə görə Nağıyev gəlirlərini təsdiqləyən sənəd təqdim etməli, bank da müştərinin daim monitorinqini aparmalı idi. Bütün bunlar üzrə sənədlər də bankın tərtib etməli olduğu kredit dosyesində saxlanılmalı idi. Məhkəmə prosesi əsnasında bank qəti olaraq kredit dosyesini təqdim etməkdən boyun qaçırır. Səbəb sadədir: qanunsuz kredit verdiyini bilir, borcalanın gəliri haqda sənəd yoxdur, monitorinq aparılmayıb və s.



Qeyd edək ki, bəziləri krediti götürən şəxsin gəliri olmasa belə, girov qoyduğunu əsas gətirib ortada hər hansı qanunsuzluq olmadığını düşünə bilər. Ancaq bu da yanlış yanaşmadır. Çünki yuxarıda haqqında danışılan Qaydaların 4.1.7-ci bəndində deyilir: "Təminatın dəyəri bankı kredit əməliyyatı üzrə dəyən zərərdən qorumaq üçün kifayət etməli, eyni zamanda kreditlərin qaytarılması üçün yeganə və əsas mənbə olmamalıdır. Kreditin qaytarılması üçün əsas borcalanın sağlam maliyyə vəziyyəti və fəaliyyəti dövründə əldə etdiyi pul vəsaiti olmalıdır."

Beləliklə, 2,5 milyonluq məlum kreditin qanunsuz verildiyi ortadadır, Mərkəzi Bank və "Premium Bank" da bunu bilib, lakin kreditin verilməsini əngəlləməyib. Görünür, işin içində dolayı şəkildə Elman Rüstəmovun da olması bunda həlledici rol oynayıb.

Onu da deyək ki, sabiq baş bankir yuxarıdakı iddialara hələ ki, münasibət bildirməyib. Rüstəmovun səssizlik nümayiş etdirməsinin özü də maraq doğurur.

Sonda onu da deyək ki, məlum kredit üzrə işə 13 fevral saat 12.00-da Yasamal rayon məhkəməsində hakim Ayşən Sultanova-Məmmədovanın sədrliyi ilə baxılacaq.

***Sənan Mirzə***

# Siyasi partiyalardan İlham Əliyevə dəstək bəyanatı

***Müstəqil Azərbaycanın siyasi tarixində ən böyük seçki təcrübəsinə malik olan Vətəndaş Həmrəyliyi Partiyası ölkəmizdə keçirilən bütün seçki və referendumlarda həm namizəd, həm də müşahidəçilərlə aktiv şəkildə təmsil olunub.***

"Unikal" xəbər verir ki, bu barədə Vətəndaş Həmrəyliyi Partiyasının bəyanatında qeyd olunub.

Bildirilib ki, 7 fevral 2024-cü il tarixində ölkəmizdə keçirilən Prezident seçkilərində Vətəndaş Həmrəyliyi Partiyası öncədən Yeni Azərbaycan Partiyasının namizədi, Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini təmin edən Ali Baş Komandan İlham Əliyevi dəstəkləyəcəyini açıq şəkildə bildirib.

"Bu mövqeyinə sona qədər sadiq qalan Vətəndaş Həmrəyliyi Partiyası seçki prosesini diqqətlə izləmiş və seçki günü yüzlərlə seçki məntəqəsində öz müşahidəçiləri vasitəsilə səsverməni canlı müşahidə edib. Seçki öncəsi təbliğat və təşviqat işlərində namizədlər üçün yaradılmış bərabərhüquqlu imkan və şərait, onların mətbuata rahat çıxışının təmin olunması, əhali ilə görüşlərinə geniş imkanlar yaradılması seçkilərin demokratik ruhda keçiriləcəyinin ilkin əlamətləri olub. Seçki günü həm canlı şəkildə məntəqə və dairələrdə müşahidələr aparılıb, həm də yüzlərlə seçki məntqəsində quraşdırılan kameralar vasitəsilə proses canlı izlənib.

Birmənalı şəkildə bəyan edirik ki, seçki prosesi boyu və səsvermə günü hansısa qanunsuz hal və pozuculuq fəaliyyəti tərəfimizdən müşahidə edilməyib. Seçkilərdə əhalinin rahat və dinc şəkildə səsverməsi təşkil edilmiş, onların seçiminə təsir göstərilməyib, seçki günü məntəqələrin ətrafında heç bir təbliğat işləri aparılmayıb. Seçkinin ilkin nəticələrini elan edən ekzitpolların mövqeyi Vətəndaş Həmrəyliyi Partiyası tərəfindən düzgün və məntiqi dəyərləndirilib.

Bu seçkilərdə Azərbaycan xalqı öz demokratik prinsiplərinə sahib çıxaraq Prezident seçkilərində yüksək seçici fəallığı göstərib. Seçicilərin böyük əksəriyyəti Azərbaycan xalqına misilsiz qələbələr bəxş edən, bizim də dəstəklədiyimiz İlham Əliyevə səs verib. Vətəndaş Həmrəyliyi Partiyası və partiyamızın çoxsaylı üzvləri adından seçkilərin nəticəsini ədalətli hesab etdiyimizi bəyan edir və İlham Əliyevi yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməsi münasibətilə təbrik edirik. İnanırıq ki, İlham Əliyev bundan sonra Azərbaycanı daha güclü dövlətə çevirəcək və öz ali missiyası ilə bütün türk dövlətlərinin birliyinə nail olacaq. Bu şərəfli yolda Prezident İlham Əliyevə böyük uğurlar arzulayırıq", - bəyanatda vurğulanıb.

Azərbaycan Ümid Partiyası isə 7 fevral 2024-cü ildə keçirilən Prezident seçkilərini azad və şəffaf, nəticələrini legitim və ədalətli hesab edir. Bəyanatda bildirilib ki, 7 fevral 2024-cü ildə növbədənkənar Prezident seçkiləri təyin olunduqdan sonra Azərbaycan Ümid Partiyası Mərkəzi Aparat və Yerli Təşkilatlarında müzakirələr keçirərək, yekdil qərarla bu seçkilərdə Azərbaycan Respublikasının Prezidenti, Qarabağ qələbəsinin və suverenliyimizin ölkə ərazisində bərqərar olmasının memarı cənab İlham Əliyevi dəstəkləyib.

Seçki təbliğatı dönəmində partiyanın səlahiyyətli şəxsləri çoxsaylı çıxışlarında bu qərarın tarixi əhəmiyyətini və vacibliyini seçicilərə çatdırmış, müzəffər Ali Baş Komandan İlham Əliyevə səs verilməsinin ölkəmiz üçün faydalarından danışıblar.

Seçki günü çoxsaylı müşahidəçilərimiz dairə və məntəqələrdə seçki prosesini izləmiş, seçkilərin Seçki Məcəlləsinə uyğun keçirilməsini təsbit edib. Hər kəs sərbəst və azad şəkildə seçkidə iştirak edərək, mövqeyini ifadə ediblər.

Bu seçki ölkədə indiyə qədər keçirilmiş seçkilərdən öz mahiyyəti, azad və şəffaflığı baxımından əhəmiyyətli dərəcədə fərqlənib. Müstəqilliyimiz bərpa olunandan sonra ilk dəfə idi ki, ölkənin bütün ərazisində seçki keçirilirdi.

Azərbaycan Respublikasının Prezidenti seçilən cənab İlham Əliyevə Cənubi Qafqazda əbədi sülh və barışın olması üçün başladığı işi uğurla davam etdirməsi, ölkəmizin problemlərinin həlli istiqamətində can sağlığı və müvəffəqiyyət arzu edir".

05_27 IYUl-QARA.qxd 2/8/2024 9:52 PM Page 9



## Rövşən Əkbərovu həbs etdirən şəxs yenidən hakim qarşısında



***Əliyev Fəday Dəmirxan oğlunun adı növbəti cinayət işində hallanır.***

"Unikal"ın əldə etdiyi məlumata görə, Həsənov Həsən Azər oğlu F.Əliyevə qarşı dələduzluq etdiyi üçün Nərimanov rayon Polis İdarəsində Cinayət Məcəlləsinin 178.2.4-cü (xeyli miqdarda dələduzluq etmə) maddəsi ilə cinayət işi başlanıb və baxılması üçün rayon məhkəməsinə göndərilib. Cinayət işi hakim Xalidə Əlisoyun icraatındadır və növbəti məhkəmə prosesi 09.02.2024-cü il tarixdə keçiriləcək.

Qeyd edək ki, Fəday Əliyev sabiq birlik komandiri, general-leytenant Rövşən Əkbərovun həbsi ilə bağlı cinayət işində zərərçəkmişin hüquqi varisi kimi tanınıb.

***Azər İsrafilov***

## Xocalıda kütləvi məzarlıq aşkarlandı



***İşğaldan azad olunan Xocalı rayonunda kütləvi məzarlıq aşkar edilib.***

"Unikal" AZƏRTAC-a istinadən xəbər verir ki, Əsgəran qalasının yaxınlığında aşkarlanan məzarlıqda azı 8 insan qalığı var. Qalıqların Xocalı faciəsi zamanı qətlə yetirilən sakinlərə məxsus olması ehtimal edilir.

Hazırda müvafiq qurumların nümayəndələri jurnalistlərin iştirakı ilə kütləvi məzarlığa baxış keçirirlər.

Qeyd edək ki, daha əvvəl Dövlət Təhlükəsizliyi Xidmətində aparılan cinayət işi üzrə təqsirləndirilən şəxs Raşid Beqlaryan ifadəsinin yerində yoxlanılması istintaq hərəkəti zamanı Xocalı soyqırımında qətlə yetirilən azərbaycanlıların Əsgəran qalası ətrafında kütləvi basdırıldığı həmin ərazini göstərmişdi.

## İlqar Məmmədov İlham Əliyevi təbrik etdi

***Respublikaçı Alternativ (REAL) Partiyası Siyasi Komitəsinin sədri İlqar Məmmədov İlham Əliyevi yenidən Azərbaycan Prezidenti seçilməsi münasibətilə təbrik edib.***

"Unikal" xəbər verir ki, təbrikdə İlham Əliyevin Azərbaycanın ərazi bütövlüyünün bərpasında rolu xüsusi vurğulanıb.

## "İslahatlar daha da dərinləşəcək" - Deputat

***"Azərbaycanda növbədənkənar prezident seçkiləri başa çatdı. Bu, yeni mərhələnin başlanması deməkdir. Bu mərhələdə iqtisadi və institusional islahatların dərinləşməsi ilə yanaşı regional stabilliyin güclənəcəyinə də zəmin yaranır".***

"Unikal" xəbər verir ki, bunu iqtisadçı deputat Vüqar Bayramov deyib. O bildirib ki, yeni dövr bütün sferalarda islahatların dərinləşməsi, Böyük Qayıdışın intensiv davam etdirilməsi və Azərbaycanın geosiyasi, geo-iqtisadi mövqeyinin daha da güclənməsi ilə xarakterizə olunacaq.

"2023-cü ildə əldə etdiyimiz uğurlar yeni mərhələdə daha da möhkəmləndiriləcək. Ərazi bütövlüyü və suverenliyimizin tam bərpa olunması kontekstində iqtisadi islahatların daha da dərinləşməsi prioritetləşməkdədir. Dünənki seçki zəfər seçkisi olmaqla yanaşı, Azərbaycanın uğurlarının güclənməsinə xidmət edəcək. Xalqımız bu seçkidə qalib Prezidentin yanında olmaqla ölkə rəhbərinin siyasətini və eləcə də Qarabağ daxil olmaqla ölkədə həyata keçirilən quruculuq işlərini fəal şəkildə dəstəklədiyini nümayiş etdirdi".

# Məmurların gözü önündə qiymət saxtakarlığı

## Həftənin sualı: endirim kampaniyaları barədə inanılmaz iddialar dolaşır, bəs niyə araşdırma aparılmır?

***Azərbaycanda endirim kampaniyalarının reallıqdan uzaq olduğu və saxta xarakter daşıdığı uzun müddətdir müzakirə mövzusudur. Bu cür kampaniyalarla bağlı dəfələrlə sərt tənqidlər səsləndirilsə, onların faktiki olaraq istehlakçıları aldatmağa yönəldiyinə dair konkret ittihamlar irəli sürülsə də aidiyyatı qurumlar tərəfindən lazımı tədbirlər görülmədiyindən mövzu öz aktuallığını qoruyub saxlayır.***

Xüsusilə 50-60, hətta bəzən də 70-80 faiz civarında təklif olunan endirimlər ətrafında ciddi şübhələr var. Bildirilir ki, belə kampaniyalar, əsasən, əvvəlki fəsil geyim mallarına şamil edilir. Buna görə də alıcılar mövcud kampaniyalardan öz büdcələrinə uyğun şəkildə yararlanmağa çalışırlar.

Bu zaman maraqlı bir sual meydana çıxır ki, mallar həqiqətən də, qeyd edildiyi kimi ucuz satılır?

Məsələ burasındadır ki, aparılan araşdırmalar nəticəsində tamamilə başqa mənzərə üzə çıxır. Sözügedən kampaniyaların müştəri cəlb etməkdən və onları aldatmaqdan başqa bir şey olmadığı aydın olur. Endirim adı ilə satılan malların qiyməti əvvəl xeyli qaldırılır, sonra isə yenə də öz qiymətindən baha qiymətə satılır.




"Azad İstehlakçılar Birliyi"nin sədri Eyyub Hüseynov bu günlərdə hit.az-a deyib ki, yalançı endirim kampaniyaları çox geniş yayılıb: "70, 80 faiz endirim kampaniyaları və yaxud 0 faizlə kreditlərin, əksəriyyətində aldatma, aldanma baş verir. Qeyd edək ki, bu sahədə Azad İstehlakçılar Birliyinə xeyli sayda müxtəlif cür şikayətlər gəlir. Birincisi, reklam kampaniyasından və yaxud küçədə görülən endirimə istehlakçı inanır və dükana girir malı seçir, lakin malı göstərəndən sonra, endirimin həmin mala aid olmadığı deyilir. İkincisi, istehlakçı endirim kampaniyasında olan malı almaq istəyir. Lakin onun ilkin sənədlərinə baxanda malın üzərində əvvəlki qiymətin xətt çəkilməklə yazıldığını və sonrakı qiyməti göstərildiyini görür. Üçüncüsü isə vətəndaş endirim kampaniyasında olan malı alır, onun tələbatını ödəməyəndə o malı 15 gün müddətində dəyişmək və qaytarmaq hüququ var. Bu zaman istehlakçı müraciət etdikdə ona endirim kampaniyasında aldığı malı dəyişdirə və qaytara bilməyəcəyi deyilir. Həmin bu üç problem ən geniş yayılmış problemdir. Bir sözlə, endirim kampaniyalarının təxminən 60-70 faizi istehlakçıların aldadılması ilə müşahidə olunur".

Xatırladaq ki, İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin İstehlakçı hüquqlarının müdafiəsi şöbəsinin müdiri Roman Qaraşov ötən il mediaya açıqlamasında bildirmişdi ki, saxta endirim vədləri istehlakçının aldadılmasına xidmət edir. "Bütün məhsullara endirim" yazılsa da, mağazalar endirimin yeni kolleksiyaya daxil olan geyimlərə şamil olmadığını deyərək endirimdən yayınırlar. Sitat: "Biz bu halların hamısını monitorinq edə bilmirik. Lakin hər bir istehlakçının konkret fakt üzrə müraciəti fərdi şəkildə araşdırılır. Endirimli mal kimi qeyd olunan məhsulu endirimli qiymətə əldə etmək mümkün olmadıqda bu məsələ istehlakçının xeyrinə həll olunur. Qanunvericiliyə uyğun olaraq, endirim zamanı malın üzərində həm köhnə, həm də yeni qiymət yazılmalıdır. Ancaq bu tələbə əməl edilmədiyi hallar da olur. Çətinlik doğuran digər hal endirimli mallarla bağlı reyestrin olmamasıdır. Məsələn, mağazanın görünən bir guşəsində yerləşdirilən lövhədə yanvar ayına aid, başqa bir lövhədə isə fevral ayına aid qiymətlər göstərilə bilər. Malların həqiqətən endirimli olub-olmadığına bu cür nəzarət etmək olar. Məhsulun qiyməti dövlət tərəfindən tənzimlənmədikdə qiyməti sahibkar özü müəyyənləşdirir. Bir məhsulun qiymətinin ötən ay 5, ya 10 manat olduğunu göstərən reyestr olmadığından endirimi aşkar etmək, istehlakçının aldadılıb-aldadılmadığını müəyyənləşdirmək çətindir. Əgər bir məhsulun üzərində iki qiymət təqdim olunubsa, bu halda sahibkar məhsulunu daha aşağı qiymətə satmalı və artıq ödənilmiş vəsaiti istehlakçıya qaytarmalıdır. Bu kimi problemli hallar olduqda onları mövcud hüquqi alətlərlə həll etmək, faktı sübut etmək çətin olur..."

Dövlət Xidməti əməkdaşının sözlərindən belə anlaşılır ki, əslində saxta endirim kampaniyalarını ifşa etmək hətta adıçəkilən qurum üçün belə müşkül məsələdir. Yəqin ticarət mərkəzləri, dükanlar bunu bildikləri üçün istehlakçıları asanlıqla aldatmaqdadırlar. Onlar fikirləşirlər ki, onsuz da qanunsuz əməllərini ortaya çıxarmaq asan olmayacaq, beləliklə də rahatca qiymət saxtakarlığına qol qoyurlar.

Lakin XXI yüzillikdə yaşayırıq, indi çarəsi olmayan yeganə şey, bəlkə də, ölümdür. Bu vəziyyətdə saxta endirim kampaniyalarını ifşa etmək çətin olmamalıdır axı... Aidiyyatı qurumların vəzifələrindən biri məsul olduqları sahədəki boşluqları doldurmaq, problemlərin həll yolunu müəyyənləşdirməkdir. Əgər həmin qurumlar da problemlə bağlı yalnız şikayətlənmək yolu tutacaqlarsa, belədə onların mövcudluğuna nə ehtiyac qalır?

Yoxsa... düz demirik?!

***Sənan Mirzə***

05_27 IYUI-QARA.qxd 2/8/2024 9:52 PM Page 10



# Yeni dönəmə start verilir: İdarəetmə sistemində köklü dəyişikliklər olacaq

## 7 fevral seçkilərinin ardınca kadr və struktur islahatlarının daha da sürətlənməsi gözlənilir



***Azərbaycanda 2023-cü ildə bir neçə dövlət qurumu və vəzifələr tamamilə ləğv edilib, bəzi qurumlar isə birləşdirilib. Məsələn, Prezidentin 27 oktyabr fərmanı ilə Səhiyyə nazirinin birinci müavini vəzifəsi ləğv olunub. Ləğv haqqında qərara qədər nazirin birinci müavini və dörd müavini vəzifəsi mövcud idi. Birinci müavin vəzifəsi ilə bərabər bir müavin vəzifəsi də ləğv olunub. Beləliklə, yeni qərarla nazirin 3 müavini müəyyənləşdirilib.***

Daha bir birinci müavin vəzifəsinin ləğvi isə Fövqəladə Hallar Nazirliyində (FHN) qeydə alınıb. Nazirliyin Dövlət Yanğından Mühafizə Xidmətində rəisin birinci müavini vəzifəsi ləğv edilib. 2022-ci ildə rəhbər dəyişikliyilə yadda qalan Azərbaycan Milli Elmlər Akademiyasının institutlarında bir sıra vəzifələr, baş direktor və icraçı direktor vəzifəsi ləğv edilib. Ölkə Prezidentinin digər fərmanı ilə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin tabeliyindəki "Hərbi Vətənpərvərlik və Mütəxəssis Hazırlığı Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyəti ləğv edilib.

Nazirlər Kabinetinin Yol hərəkətinin təşkili, tənzimlənməsi və təhlükəsizliyi üzrə Komissiyası ləğv edilib. Bu, qurumun Nazirlər Kabinetinin Yol hərəkətinin təşkili, tənzimlənməsi və təhlükəsizliyi üzrə Komissiyası haqqında" qərarına etdiyi dəyişiklikdə əksini tapıb.

Ötən il həm də Naxçıvan Muxtar Respublikasında daha çox dəyişiklik olub. Naxçıvanda Dövlət Baytarlıq Xidməti ləğv edilib. Həmin xidmət Naxçıvan Muxtar Respublikasının Kənd Təsərrüfatı Nazirliyinə verilib.

Bundan əlavə üç qurum - Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası, "Naxçıvan mətbəxi" Kulinariya Mərkəzi və Elmin İnkişafı Fondu ləğv edilib.Həmçinin, Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin bir sıra idarələri ləğv edilib.

Nazirliyin ləğv edilən qurumları sırasına Ekologiya və Təbii Sərvətlər Hidrometrologiya İdarəsi, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Meşələrin İnkişafı İdarəsi, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Sədərək Rayon Su Monitorinq Laboratoriyası, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Balıq Mühafizə Stansiyası, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Culfa şəhərində yerləşən Geoloji Axtarış və Kəşfiyyat İdarəsi aiddir.

Bəs bu il hansısa dövlət qurumlarının və yüksək vəzifələrin ləğvi mümkündürmü? Bir çoxları bunu real hesab edir. Bildirilir ki, fevralın 7-də keçirilən Prezident seçkilərindən sonra kadr islahatları ilə yanaşı struktur islahatları da istisna olunmur.

Beynəlxalq təcrübəyə istinad etsək, görərik ki, inkişaf etmiş və etməkdə olan ölkələrin çoxunda nazirliklərin sayı minimum həddədir. Bir çox dövlət qurumları isə özəlləşdirilib. Xüsusən, təkrarçı qurumlar vaxtilə fəaliyyət göstərsə də, artıq mövcud deyil. Misal üçün, qonşu Gürcüstanda Nazirlər Kabineti 12 nəfərdən - Baş nazir və 11 nazirdən ibarət tərkibdə fəaliyyət göstərir. Azərbaycandan dəfələrlə böyük olan Ukraynada 17, Almaniyada isə cəmi 9 nazirlik fəaliyyət göstərir. Siyahını uzatmaq da olar.

Azərbaycan Nazirlər Kabinetinin tərkibinə isə 31 dövlət qurumu daxildir. Bunlardan 17-si nazirlik, 7-si dövlət komitəsi, 5-i dövlət xidməti, 2-si isə dövlət agentliyidir. Bununla yanaşı, Nazirlər Kabinetinin tərkibinə daxil olmayan çoxsaylı iri dövlət qurumları, agentliklər, ASC-lər, dövlət şirkətləri və s. mövcuddur.

Son illərdə bir sıra nazirliklər, komitələr, agentliklər ya ləğv olunub, ya da birləşdirilib. Lakin bəzi ekspertlər həmin prosesin davam etdirilməsinə hələ də ehtiyac olduğu qənaətindədirlər. Bildirilir ki, hökumətin çevik fəaliyyətini təmin etmək üçün onun qarşısındakı dövrdə daha da optimallaşdırılması və rasionallaşdırılması arzuolunandır.

Bu proses dövlət büdcəsini xeyli xərclərdən azad edərdi. Xüsusilə bir sıra dövlət şirkətlərinin büdcədən dotasiya almasına baxmayaraq hələ də ziyanla işlədiyi müşahidə olunur. Onlarla bağlı da yeni qərarların verilməsi (ləğv, özəlləşdirmə, birləşdirmə və s.) gözləniləndir.

***Toğrul Əliyev***

# Sahibə Qafarova türkiyəli deputatlarla görüşüb



***Milli Məclisin sədri Sahibə Qafarova prezident seçkilərini müşahidə etmək üçün ölkədə səfərdə olan Türkiyə Böyük Millət Məclisinin (TBMM) və Türk Dövlətləri Parlament Assambleyasının nümayəndə heyətləri ilə görüşlər keçirib.***

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən "Unikal"a verilən məlumata görə, Sahibə Qafarova bu seçkilərin Azərbaycan xalqı üçün tarixi hadisə olduğunu deyərək dost və qardaş türkiyəli millət vəkillərinin prosesi müşahidə etməklərindən məmnunluğunu bildirib.

Milli Məclisin sədri görüşlərdə vurğulayıb ki, bütün müşahidəçilərin də mövqeyi bu yöndədir ki, prezident seçkiləri demokratik, qabaqcıl norma və prinsiplərə uyğun, şəffaf şəkildə keçirilib.

Görüşlərdə müşahidə missiyasının üzvləri prezident seçkilərinin uğurla başa çatması münasibətilə təbriklərini çatdıraraq, bu seçkilərin Azərbaycanın inkişafında mühüm əhəmiyyətini qeyd ediblər.

# Prezident İlham Əliyev Şanxay Əməkdaşlıq Təşkilatının Baş katibini qəbul edib

***Fevralın 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Şanxay Əməkdaşlıq Təşkilatının Baş katibi Can Mini qəbul edib.***

"Unikal" xəbər verir ki, Prezident İlham Əliyev müşahidə missiyasında iştirakına görə Şanxay Əməkdaşlıq Təşkilatının Baş katibinə, müşahidə qrupunun üzvlərinə və üzv dövlətlərə minnətdarlığını bildirdi.

Can Min Azərbaycanın Şanxay Əməkdaşlıq Təşkilatının fəal tərəfdaşlarından biri olduğunu və Azərbaycan ilə əlaqələrin hərtərəfli inkişafına əhəmiyyət verdiklərini bildirdi. Ölkəmizlə müxtəlif sahələrdə yaxın tərəfdaşlıq əlaqələrinin olduğunu deyən Şanxay Əməkdaşlıq Təşkilatının Baş katibi Heydər Əliyev Fondunun xətti ilə qurulan mədəni-humanitar əməkdaşlığı xüsusilə qeyd etdi.

Dövlətimizin başçısı Azərbaycan ilə Şanxay Əməkdaşlıq Təşkilatı arasında əlaqələrin hərtərəfli inkişafı üçün böyük imkanların olduğunu bildirdi, ölkəmizin, eyni zamanda, Şanxay Əməkdaşlıq Təşkilatına üzv dövlətlərlə də ikitərəfli qaydada çox sıx əlaqələrini vurğuladı. Bu xüsusda dövlətimizin başçısı prezident seçkilərində qələbə münasibətilə ilk təbrikləri Təşkilata üzv ölkələrdən aldığını qeyd etdi. Prezident İlham Əliyev Şanxay Əməkdaşlıq Təşkilatına üzv ölkələrin Özbəkistanın Səmərqənd şəhərində keçirilmiş Zirvə toplantısında iştirakını məmnunluqla xatırladı.

Qonaq Azərbaycanın COP29-a ev sahibliyi münasibətilə təbriklərini çatdırdı, bunun Azərbaycanın insaniyyətə və bəşəri inkişafa verdiyi töhfənin bariz nümunəsi olduğunu bildirdi. Can Min COP29 çərçivəsində də Azərbaycan ilə Şanxay Əməkdaşlıq Təşkilatı arasında əməkdaşlıq məsələlərini qeyd etdi.

# Fuad Muradov "Bukharian Times" qəzetinin baş redaktoru ilə görüşdü

***Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov BŞ və Kanadanın Buxara Yəhudiləri Konqresinin koordinatoru, "Bukharian Times" qəzetinin baş redaktoru Rafael Nektalov ilə görüşüb.***

"Unikal" xəbər verir ki, qonağı səmimi salamlayan komitə sədri Azərbaycanın dostunu ölkəmizdə görməkdən məmnunluq ifadə edib. Qeyd olunub ki, "Bukharian Times" qəzetində davamlı olaraq Azərbaycanla bağlı məlumatlar verilir və həqiqətlər beynəlxalq ictimaiyyətə olduğu kimi çatdırılır. Buxara yəhudilərinin azərbaycanlılara böyük sevgi bəslədikləri, ABŞ və Kanadada olan Azərbaycan icması ilə sıx əlaqələri diqqətə çatdırılıb, tarix və mədəniyyətimizin bir-birinə yaxınlığı bir daha vurğulanıb.

Qonağa ulu öndər Heydər Əliyevin 100 illiyi münasibətilə çap olunan "Öndə gedən" kitabı hədiyyə olunub. Görüşdə həmçinin əməkdaşlıq perspektivləri müzakirə olunub.

Qazaxıstanda yaşayan azərbaycanlı musiqiçi, mahir tar ifaçısı "Xəzər" Etno-Mədəni Birliyinin sədr müavini Sadiq Namazovla görüşdə isə iki ölkə arasındakı münasibətlərin sarsılmazlığından, dost ölkədə yaşayan azərbaycanlıların bu münasibətlərin inkişafına verdiyi töhfələrdən və soydaşlarımızın yaşadıqları cəmiyyətə uğurlu inteqrasiyasından danışılıb. Bir sıra beynəlxalq müsabiqələrdə Azərbaycan və türk musiqilərinin təbliğindəki roluna görə nüfuzlu mükafatlara layiq görülən və bir neçə müsabiqənin laureatı olan soydaşımıza uğurlu diaspor fəaliyyətinə görə komitə adından təşəkkürnamə təqdim olunub.

05_27 IYUl-QARA.qxd 2/8/2024 9:52 PM Page 11



# Sabiq hakim barəsində cinayət işi başlandı



***Bərdə Rayon Məhkəməsinin vəzifəli şəxslərinin qanunsuz hərəkətləri ilə bağlı vətəndaş müraciəti əsasında Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində Məhkəmə-Hüquq Şurası ilə birgə araşdırma aparılıb.***

Baş Prokurorluğun Mətbuat xidmətindən "Unikal"a verilən məlumata görə, ibtidai istintaqla Bərdə Rayon Məhkəməsinin hakimi Əhmədov Elsun Məzahir oğlunun həmin vəzifədə işləyərkən şəxsin Cinayət Məcəlləsinin 234.2-ci maddəsi ilə təqsirləndirilməsinə dair cinayət işi üzrə yüngül cəzanın təyin olunması müqabilində onun ailə üzvlərindən külli miqdarda pul vəsaitini rüşvət qismində almasına əsaslı şübhələr müəyyən edilib.

Qeyd edək ki, Elsun Əhmədovun fəaliyyətində peşəkar çatışmazlıqlar müəyyən edildiyi üçün hakimlərin fəaliyyətinin qiymətləndirilməsi ilə bağlı Məhkəmə-Hüquq Şurasının 21 dekabr 2023-cü il tarixli qərarı ilə onun səlahiyyət müddəti uzadılmayıb.

İş üzrə toplanmış ilkin sübutlar əsasında Əhmədov Elsun Məzahir oğlu şübhəli şəxs qismində tutulub, fevralın 8-də ona Cinayət Məcəlləsinin 311.3.3-cü (külli miqdarda rüşvət alma) maddəsi ilə ittiham elan edilib, istintaq orqanının vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı əsasında barəsində məhkəmənin qərarı ilə ev dustaqlığı növündə qətimkan tədbiri seçilib.

Hazırda cinayət işi üzrə ibtidai istintaq davam etdirilir.

# Sumqayıtda 48 yaşlı kişi itkin düşdü

***Sumqayıt şəhərində yaşayan Rəvan Abdullayev 04.02.2024-cü il tarixində polisə məlumat verərək qardaşı 1976-cı il təvəllüdlü Abdullayev Rüfət Sovet oğlunun "BTZ" bağları ərazisində yerləşən kafelərdən birindən çıxaraq naməlum istiqamətə getdiyini və bir daha geri qayıtmadığını bildirib.***

Daxili İşlər Nazirliyindən "Unikal"a verilən xəbərə görə, itkin düşən şəxsin əlamətləri belədir: boyu 168 sm, arıq bədən quruluşlu, gözlərinin rəngi qəhvəyidir. Rüfət Abdullayev sağ və sol əlinin üzərində "Rəvan" və "Sərvan" yazılan döymə var. İtkin düşən zaman onun əynində boz rəngli cins şalvar, qəhvəyi rəngdə gödəkçə, ayağında qara rəngli ayaqqabı, başında papaq olub.

Fotodakı şəxsi tanıyanlardan və barəsində məlumatı olanlardan DİN-in "102" xidmətinə, həmçinin Sumqayıt Şəhər Polis İdarəsinin 5-ci Polis Bölməsinə 077-591-21-21 və 018-655-76-65 nömrələrinə zəng edərək məlumat verməleri xahiş olunur.

# Utilizasiya ilə bağlı daha bir dəyişiklik



***Xidmət haqlarına dair məlumatlar yol polisinin mərkəzi informasiya sisteminə təqdim ediləcək***

Prezident İlham Əliyev "İstehsalat və məişət tullantıları haqqında" qanunda dəyişiklik edilməsi barədə 24 iyun 2023-cü il tarixli qanunun icrası ilə əlaqədar bəzi fərmanlarında və sərəncamında dəyişiklik edib.

"Unikal" xəbər verir ki, dövlət başçısı bununla bağlı yeni fərman imzalayıb.

Fərmana əsasən, bundan sonra hüquqi və fiziki şəxslər tərəfindən nəqliyyat vasitələrinin qanunla müəyyən edilmiş hallarda dövlət texniki baxışından keçirilməsi, nəqliyyat vasitələrinin dövlət qeydiyyatı, sürücülük vəsiqəsinin verilməsi üçün imtahanların qəbuluna görə, sürücülük vəsiqəsinin verilməsi və ya sürücülük vəsiqəsinin dəyişdirilməsi, dövlət qeydiyyat nişanlarının və qeydiyyat şəhadətnaməsinin verilməsi, avtomobil yollarının ayırma zolağında inşa edilən obyektlərdə təhlükəsiz hərəkət sxemlərinin hazırlanması və razılaşdırılması üçün ödənilmiş dövlət rüsumları ilə yanaşı, utilizasiya haqları barədə məlumatlar da Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin mərkəzi informasiya sisteminə təqdim ediləcək.

# Mahir Quliyevdən müsadirə edilən əmlakları ilə bağlı son həmlə

## Həbsdəki sabiq icra başçısı onları geri qaytarmağın fərqli yolunu "tapıb?"



***Biləsuvarın həbsdə olan sabiq icra başçısı Mahir Quliyevin gəlini qayınatası ilə bağlı hökmdən narazıdır.***

Bu günlərdə yayılan məlumata görə, məhkumun gəlini İlkanə Quliyeva hökmün əmlakların müsadirəsi hissəsi ilə əlaqədar maraqlı şəxs kimi Ali Məhkəməyə müraciət edib.

Quliyeva iddia edir ki, qaynatasının əmlakı kimi dövlət nəfinə alınan Bakı şəhərində yerləşən evlərdən biri əslində ona məxsusdur. O, yüksək instansiya məhkəməsinə göndərdiyi şikayət ərizəsində həmin evin müsadirədən azad edilməsini xahiş edir. Kassasiya şikayəti məhkəmənin icraatına qəbul olunub.

Xatırladaq ki, M.Quliyev Cinayət Məcəlləsinin 179-cu (mənimsəmə və israf etmə), 308.1-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə etmə), 311.3.2-ci (təkrar rüşvət alma) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə təqsirli bilinib. Eks-icra başçısı Lənkəran Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə 11 il azadlıqdan məhrum edilib. Hökmə əsasən, M. Quliyevin 2 evi və 1 avtomobili dövlət nəfinə müsadirə olunub. Şirvan Apellyasiya Məhkəməsi və Ali Məhkəmə hökmü qüvvədə saxlayıb.

Bir müddət öncə sabiq icra başçısının özü barəsindəki hökmdən verilən kassasiya şikayətinin bəzi detalları məlum olmuşdu. Ali Məhkəmənin hakimi Ələsgər Novruzovun sədrliyi ilə keçirilən prosesdə təqsirləndirilən şəxsin nümayəndəsi kassasiya şikayətini onunla əsaslandırmışdı ki, Şirvan Apellyasiya Məhkəməsinin 19 dekabr 2022-ci il tarixli qərarı əmlak müsadirəsi hissəsində əsassızdır, qanunun tələblərinə cavab vermir.Belə ki, birinci instansiya məhkəməsi hökmlə xüsusi müsadirə olunan əmlakların, o cümlədən Bakı şəhəri, Nərimanov rayonu, T.Şıxalıyev küçəsi, ev 20, mənzil 141-in Cinayət Məcəlləsinin 99-1-ci maddəsinin hansı bəndində nəzərdə tutulan əmlaklara aid olduğunu müəyyən etməyib və qiymət verməyib, apellyasiya instansiyası da onun mövqeyi ilə razılaşmamışdı.

"Apellyasiya məhkəməsi şikayətini təmin etməməsini onunla əsaslandırıb ki, cinayət əməllərinin törədildiyi dövr 2012-ci ilin yanvar ayından 2020-ci ilin aprel ayına kimi olan dövrü əhatə edir. Qeyd olunan mənzil də 2012-ci ildə alınıb. Odur ki, göstərilənləri nəzərə alaraq, Şirvan Apellyasiya Məhkəməsinin Mahir Quliyevin barəsində 19 dekabr 2022-ci il tarixli qərarını xüsusi müsadirəyə aid hissədə dəyişdirməklə birgə paylı mülkiyyətində olan 141 saylı mənzili xüsusi müsadirə edilən əmlakların siyahısından çıxarılması və həmin mənzil üzərinə qoyulmuş həbsin ləğv edilməsi barədə qərar qəbul edilməsini xahiş edirik", - deyə şikayətdə vurğulanıb.

Lakin sonda Ali Məhkəmə şikayəti təmin etməmişdi.

İndi isə M.Quliyevin gəlini əmlak iddiası ilə çıxış edib.

Belə görünür, sabiq icra başçısı və onun ailəsi müsadirə olunan əmlakları bağlı yeni xətt götürüb. Söhbət həmin əmlakların əslində M.Quliyevə aid olmadığını bildirməklə onları geri qaytarmaq cəhdlərindən gedir.

Əslində sabiq icra başçısının vəzifədə ola-ola alınan əmlakları öz adına rəsmiləşdirməsi təbii ki, absurd olardı. Hər halda heç br məmur hansısa post tutarkən öz adına biznes obyekti açmır, ya da mal-mülk sahibinə çevrilmir, onları ailə üzvlərinin, yaxınlarının adına rəsmiləşdirir. Eyni üsula M.Quliyevin də əl atması təəccüblü deyil. Lakin bu, həmin əmlakların sabiq icra başçısına məxsus olmadığını söyləmək üçün əsas vermir.

Sonda onu da xatırladaq ki, Biləsuvarın sabiq icra başçısının aşağıdakı əmlakları müsadirə olunub:

- Bakı şəhərində yerləşən, 2005-ci ildə alınmış mənzil;
- "Audi" markalı avtomobil;
- Bakı şəhərində yerləşən daha bir mənzil.

Onu da bildirək ki, Mahir Quliyevə və onun ailə üzvlərinə aid olan əmlaklar 1 milyon 34 min manat dəyərində qiymətləndirilib.

Onun iki ay öncə saxlanıldığı müəssisədə vəziyyətinin kəskin pisləşdiyi barədə məlumat yayılmışdı. Sabiq başçının vəkili Ceyhun Yusifovun sözlərinə görə, Mahir Quliyev həbs olunmamışdan 10 gün öncə kəskin infarkt keçirib: "Ürəyinə 3 ədəd stend qoyulub. Şəkərli diabet,ürək çatışmamazlığı, yüksək qan təzyiqi, yüksək aritmiya (ürək döyüntüsü), hepatit C xəstəliyindən əziyyət çəkir. Covidin ağır formasını keçirib, suni tənəffüs aparatına (IVL) qoşulmuş halda 2 ay komada qalıb. Əlavə olaraq əməliyyat yoluyla boğazından dəlik açılıb trixastom aparatı qoyulmuşdur. Sonradan Bakı Reabilitasiya mərkəzinə köçürülmüş, 3 ay reabilitasiya kursu keçmişdir. Orada da çənə sümüyünün cərrahi əməliyyatı olunmuşdur. Onkoloji şübhə olduğu üçün biopsiya alınmışdır. Hal-hazırda vəziyyəti kafi, zəif və halsızdır. Təngnəfəslik, yüksək nəbz, təzyiq, şəkər və aşağı saturasiyayla xəstəxana şəraitində bir sıra müalicələr alır".

Vəkil onu da bildirmişdi ki, bu vəziyyət davam edərsə, sabiq icra başçısı həyatını itirə bilər.

***Toğrul Əliyev***

## 5.3.11. regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# İşğaldan azad edilmiş ərazilərimiz ölkə iqtisadiyyatına reinteqrasiya edilir



***Azərbaycan dövləti üçün regionların sosial-iqtisadi inkişafı prioritet məsələlərdəndir. Artıq Azərbaycan dövləti işğaldan azad edilmiş ərazilərdə iqtisadiyyatın inkişaf etməsi üçün dəstək tədbirlərinə başlayıb. Qarabağ və Şərqi Zəngəzur üçün 10 illik güzəşt paketi buna bir misaldır.İqtisadiyyat Nazirliyindən "Unikal" Qəzetinin sorğusuna cavabda bildirilir ki, işğaldan azad edilmiş ərazilərimizin ölkə iqtisadiyyatına reinteqrasiyası, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında genişmiqyaslı bərpa-quruculuq işlərinin aparılması, regionlarda sosial-iqtisadi inkişafın sürətləndirilməsi əsas prioritetlərdəndir.***

Belə ki, regionların inkişafını dəstəkləyən investisiya layihələri, xüsusilə də Azərbaycanın işğaldan azad olunmuş ərazilərində mövcud infrastruktur layihələri üzrə investisiya qoyuluşu ilə bağlı investorlar üçün geniş və əlverişli imkanlar təklif edilir.

"Bu imkanlara 2023-cü il üzrə kreditlərin dövlət zəmanəti ilə təmin edilməsi və kredit faizlərinin subsidiyalaşdırılması, mənfəət, əmlak, torpaq və sadələşdirilmiş vergidən azadolma, müvafiq iqtisadi fəaliyyət sahələri və mal nomenklaturaları üzrə texnikanın, texnoloji avadanlıqların və qurğuların, habelə xammal və materialların idxalının ƏDV və gömrük rüsumundan azadolması, kommunal xidmətlər və miqrasiya kvotası ilə bağlı güzəştlər və s. daxildir. Növbəti illərdə Azərbaycan iqtisadiyyatı qarşısında duran əsas çağırış neft-qaz resurslarından asılılığı minimuma endirmək, qeyri-neft sektorunun iqtisadiyyatda çəkisini daha çox özəl sektor vasitəsilə maksimum həddə çatdırmaq, onun ixrac olunan hissəsinin sektorun ÜDM-də payını əhəmiyyətli artırmaqla və qlobal dəyər zəncirinə daha dərindən inteqrasiya etməklə iqtisadiyyatın şaxələnməsi səviyyəsini yüksəltməkdir" deyə nazirlikdən bildirilib.

Həmçinin qeyd edilib ki, qlobal iqtisadi çağırışlara uyğun olaraq, son illərdə ölkəmizdə sənayeləşmə templəri yüksəlib, yüzlərlə müasir və yeni texnologiyaları tətbiq edən sənaye müəssisəsi, istehsal sahəsi yaradılıb, tələbatın ödənilməsində yerli məhsulların payı əhəmiyyətli dərəcədə artmış, ixracın həcmi yüksəlib. Azərbaycanda qeyri-neft sektorunun innovativ və yüksək texnologiyalara əsaslanan inkişafını təmin etmək, əhalinin istehsal sahəsində məşğulluğunu artırmaq, regionların sənaye potensialından daha səmərəli istifadə etmək məqsədilə ölkə başçısının müvafiq tapşırıqlarına əsasən Sumqayıt Kimya, Balaxanı, Mingəçevir, Qaradağ, Pirallahı, Ağdam və "Araz Vadisi İqtisadi Zonası" sənaye parkları, Neftçala, Masallı, Hacıqabul, Sabirabad və Şərur sənaye məhəllələri yaradılıb. Sahibkarlara müasir infrastruktur və lazım olan dəstəklər təqdim edilib və həmin ərazilərdə müasir texnologiya və standartlara uyğun müəssisələr fəaliyyətə başlayıbdır. Sahibkarlara investisiya təşviqi sənədinin verilməsi mexanizminin tətbiqi davam etdirilir. Sənədi əldə edən hüquqi şəxslər və fərdi sahibkarlar texnika, texnoloji avadanlıq və qurğuların idxalı zamanı ƏDV və idxal gömrük rüsumlarından, habelə əmlak və torpaq vergiləri, eləcə də mənfəət və gəlir vergisinin 50 faizinin ödənilməsindən azad edilir. Beynəlxalq sərgi və ticarət yarmarkalarında ölkə sahibkarlarının iştirakına və "Made in Azerbaijan" brendinin xaricdə tanıdılmasına dəstək kimi tədbirlər də ixracın artımını stimullaşdırır. Xarici ölkələrdə Azərbaycan məhsullarının və mətbəxinin təqdim olunduğu 11 ticarət evi fəaliyyət göstərir. Ölkəmizin iqtisadi-ticarət əlaqələrini genişləndirmək, bu sahədə maraqlarını qorumaq və təmsil etmək məqsədi daşıyan ticarət nümayəndəliklərinin fəaliyyəti genişlənir. Qeyd olunanlardan əlavə, ölkədə investorlar üçün dövlət-özəl tərəfdaşlığı çərçivəsində və dövlət şirkəti olaraq Azərbaycan İnvestisiya Şirkətinin tərəfdaş olduğu layihələrdə iştirak etmək, habelə Sahibkarlığın İnkişafı Fondunun güzəştli kreditlərini əldə etmək imkanları yaradılıb.

Nazirlikdən o da bildirilib ki, sahibkarlıq sahəsində lisenziya tələb olunan fəaliyyət növlərinin əhəmiyyətli dərəcədə azaldılması, icazələrin sayının müəyyən edilməsi, onların verilməsi üçün tələb olunan prosedurların sadələşdirilməsi, dövlət rüsumunun məbləğlərinin azaldılması sahəsində aparılan yoxlamaların dayandırılmasının 01.01.2024-cü il tarixinədək növbəti müddətə artırılması, sərmayə qoyuluşunun stimullaşdırılması məqsədilə investisiya təşviqi sənədinin verilməsi, satınalmalar sahəsində kotirovka sorğusu prosedurunun tamamilə elektronlaşdırılması, "kölgə iqtisadiyyatı"nın miqyasının azaldılması məqsədilə həyata keçirilən vergi islahatları özəl sektorun inkişafına xidmət edir.

" 2015-ci ildə ölkədə həyata keçirilən islahatlar çərçivəsində sahibkarlıq fəaliyyətinə lisenziyaların verilməsi istiqamətində köklü dəyişikliklər edilib. Ölkə başçısının 21 dekabr 2015-ci il tarixli Fərmanı ilə lisenziya tələb olunan fəaliyyət növlərinin sayı 59-dan 36-ya endirilmiş, yeni verilən, o cümlədən həmin Fərmanın qüvvəyə mindiyi gün qüvvədə olan müddətli lisenziyalar müddətsiz müəyyən edilmiş, lisenziyanın verilməsinə görə ödənilən dövlət rüsumunun məbləğləri iki dəfə azaldılmış, lisenziyaların verilməsi müddəti 15 gündən 10 iş gününə endirilib. Azərbaycanda ilk dəfə qəbul olunan "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının 15 mart 2016-cı il tarixli Qanunu ilə lisenziya tələb olunan fəaliyyət növləri və icazələrin siyahısı müəyyən edilib, icazələrin sayı 4 dəfə azaldılaraq 330-dan 86-ya endirilib. Bunlarla yanaşı, sahibkarların investisiya layihələrinin güzəştli şərtlərlə kreditləşdirilməsi, dövlətlə özəl sektor arasında birgə maliyyələşdirmə və risklərin bölüşdürülməsi, sənaye və texnologiyalar parklarının, sənaye məhəllələrinin, aqroparkların yaradılması ilə bağlı sistemli tədbirlər həyata keçirilir".

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**



# Komitə sədri bir qrup mərakeşli jurnalistlə görüşdü

***Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev bir qrup mərakeşli media təmsilçisi - "Məqrib Ərəb Press" qəzetinin redaktoru Mohammed Asvab, "L'Opinion" jurnalının redaktoru Anass Maçlux, "Le Matin" mətbu nəşrinin redaksiya rəhbəri Suheyl Naili, "Al Bayane" qəzetinin rəhbəri, nəşrlər üzrə direktoru Mahtat Rakas, "La Vie Eco" nəşrinin direktoru Fahd İraqi, "Le Desk" mətbu nəşrinin həmtəsisçisi, jurnalist Fatimə Əlqadiri, "TelQuel" mətbu nəşrinin əməkdaşı Yassin Məcidi, "L'economiste" qəzetinin əməkdaşı Saad Alami Yunis, BBMTV telekanalının kameramanı Buçayib Radda və Bahu Əlhəsən ilə görüşüb.***

"Unikal" xəbər verir ki, komitə sədri qonaqları salamlayaraq onlara ölkəmizdə qaçqınlar və məcburi köçkünlərlə iş sahəsində aparılan dövlət siyasəti, bu kateqoriyadan olan insanların sosial-məişət, yaşayış və məşğulluq problemlərinin həlli istiqamətində görülən işlər, ərazilərimizin erməni işğalından azad edilməsindən sonra yaranan vəziyyət, Böyük Qayıdış proqramının icrası barədə məlumat verib.

Prezident İlham Əliyevin qaçqınları və məcburi köçkünlərə daim qayğı göstərdiyi, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın onlarla bağlı məsələlərə xüsusi diqqət göstərdiyi vurğulanıb. Qeyd olunub ki, dövlət rəhbərləri işğaldan azad edilmiş ərazilərdə bərpa-quruculuq işlərinin gedişini, məcburi köçkünlərin təhlükəsiz, könüllü və ləyaqətlə əvvəlki yaşayış yerlərinə qaylıdışının təmin edilməsini şəxsən nəzarətdə saxlayırlar.

Bildirilib ki, Qayıdışa Dair I Dövlət Proqramının icrası çərçivəsində Qarabağ və Şərqi Zəngəzur torpaqlarında işlər sürətlə davam etdirilir və həmin torpaqların sakinləri mərhələli surətdə öz doğma yurdlarına köçürülür. İndiyədək 4 mindən çox məcburi köçkünün işğaldan azad edilmiş ərazilərdə yeni salınan və bərpa olunan yaşayış məntəqələrinə qayıdışı təmin edilib. Eyni zamanda diqqətə çatdırılıb ki, işğal dövründə və sonradan Ermənistanın Azərbaycan ərazilərində həyata keçirdiyi mina terrorunun nəticələrinin aradan qaldırılması zərurəti qayıdış prosesini ləngidir.

"Məqrib Ərəb Press" qəzetinin redaktoru Mohammed Asvab komitənin fəaliyyəti, işğaldan azad olunmuş ərazilərdə aparılan işlərlə bağlı verilən məlumat üçün təşəkkür edib, görüşün keçirilməsindən məmnunluq ifadə edilib. Bildirilib ki, həmin ərazilərdə aparılan işlər dünya mediasının da diqqətindədir və prosesləri onlar da diqqətlə izləyirlər.

Görüşün sonunda Dövlət Komitəsinin sədri jurnalist Buçayib Raddaya müsahibə verib və Böyük Qayıdışa dair I Dövlət Proqramının icrası çərçivəsində görülən işlər barədə xarici medianı maraqlandıran çoxsaylı sualları cavablandırıb.

Qeyd edək ki, mərakeşli media nümayəndələri növbəti günlərdə Ağdama, Şuşaya və işğaldan azad edilmiş digər ərazilərə səfər edəcəklər.

Görüşdə Azərbaycan Respublikası Diaspora İş üzrə Dövlət Komitəsinin və Azərbaycanın Mərakeşdəki səfirliyinin nümayəndələri iştirak ediblər.

# Ağsuda sənaye, tikinti və ticarətin inkişaf statistikası

***Ağsu Rayon Statistika İdarəsindən verilən məlumata görə, 2023-cü ilin yanvar-dekabr ayları ərzində faktiki qiymətlərlə 59456,2 min manatlıq sənaye məhsulu istehsal edilmiş və sənaye xarakterli xidmətlər göstərilib.***

İstehsalın ümumi həcmində emal sektoru 92,0 faiz, mədənçıxarma sənayesi 1,4 faiz, elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektoru 5,9 faiz, su təchizatı, tullantıların təmizlənməsi və emalı sektoru 0,7 faiz təşkil edib.

Emal sektorunda 2023-cü ilin yanvar-dekabr ayları ərzində 54697,9 min manatlıq məhsul istehsal edilmiş, 2022-ci ilin yanvar-dekabr aylarına nisbətən 6,3 faiz azalıb.

Emal sektorunda 2022-ci ilin müvafiq dövrünə nisbətən qida məhsullarının istehsalı 6,3 faiz, mebellərin istehsalı 21,6 faiz azalmış, içki istehsalı 4,2 faiz artıb.

Elektrik enerjisi, qaz, buxar istehsalı, bölüşdürülməsi və təchizatı bölməsinin müəssisələri tərəfindən 2022-ci il yanvar-dekabr aylarında 3531,2 min manatlıq məhsul buraxılmış və xidmətlər göstərilmiş və 2022-ci ilin eyni dövrü ilə müqayisədə sabit qiymətlərlə 35,8 faiz artıb.

Mədənçıxarma sənayesində 803,4 min manatlıq məhsul istehsal olunub. Su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda istehsalın real həcmi 6,5 faiz artaraq 423,7 min manat təşkil edib.

2023-cü ilin yanvar-dekabr aylarında bütün maliyyə mənbələrindən əsas kapitala 175057,2 min manat və ya 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə 2,4 dəfə çox vəsait yönəldilib.

Əsas kapitala yönəldilmiş vəsaitlərin 172538,2 min manatı və ya 98,6 faizi bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunub.

Əsas kapitala yönəldilmiş vəsaitin 99,3 faizini və ya 173746,7 min manatını dövlət sektoru, 0,7 faizini və ya 1310,5 min manatını isə qeyri-dövlət sektoru təşkil edib.

Ağsu Rayon Statistika İdarəsindən verilən məlumata görə, 2023-cü ilin yanvar-dekabr aylarında pərakəndə ticarət şəbəkələrində istehlakçılara 217583,1 min manatlıq məhsul satılmış və onun 128815,8 min manatını (59,2 faiz) ərzaq məhsulları, içkilər və tütün məmulatları, 88767,3 min manatını (40,8 faiz) qeyri-ərzaq malları təşkil edib.

2022-ci ilin müvafiq dövrünə nisbətən pərakəndə ticarət dövriyyəsinin həcmi müqayisəli qiymətlərlə 2,0 faiz azalmış, o cümlədən, ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə 17,2 faiz azalmış, qeyri-ərzaq malları üzrə isə 33,3 faiz çoxalıb.

# TDT Şuşa, Xocalı və Xankəndidə apardığı müşahidənin nəticələrini açıqladı



***Seçki günü hansısa siyasi qüvvə tərəfindən seçicilərə heç bir təzyiq, müdaxilə edilməyib.***

"Unikal" xəbər verir ki, bu barədə Türk Dövlətləri Təşkilatının (TDT) Baş katibi Kubanıçbek Ömüralıyev növbədənkənar prezident seçkilərinin yekunları ilə bağlı fevralın 8-də keçirilən mətbuat konfransında bildirib.

O bildirib ki, missiya seçki günü Bakıda, Şuşada, Xankəndidə və Xocalıda monitorinqlər aparıb:

"Missiyamız 22 məntəqəyə baş çəkib. Seçki prosesi zamanı missiyamız heç bir qanunsuzluq, narazılıq müşahidə etməyib. Hər şey qanunauyğun idi. Seçicilərin rahatlığı üçün hər cür şərait yaradılmışdı. Müşahidə missiyamız seçkiyə təsir edə biləcək hər hansı bir mənfi halla qarşılaşmayıb. Seçki məntəqələrində beynəlxalq və yerli müşahidəçilər üçün əlçatanlıq təmin olunmuşdu.

Onun sözlərinə görə, təşkilat növbədənkənar prezident seçkilərində müşahidəçilik missiyasını beynəlxalq standartlara və qanunlara uyğun şəkildə uğurla başa vurub: "TDT müşahidəçiləri seçkilərdən öncə Prezident İlham Əliyev və Mərkəzi Seçki Komissiyasının sədri ilə görüşlər keçirib: Seçki günü isə müşahidəçi missiyamız üç qrupa bölünüb. Bakı, Şuşa, Xocalı və Xankəndidə səsvermə prosesi müşahidə olunub. Məntəqələrdən müşahidəçilərə bütün məlumatlar tam şəkildə verilib. Hansısa qanun pozuntularına şahidlik etməmişik. Proses zamanı ictimai asayiş tam təmin olunub. Səsvermə məntəqələrində tamamilə azad şəkildə proses reallaşdırılıb".

K.Ömüralıyev deyib ki, missiya müşahidə zamanı əlilliyi olan vətəndaşların səsvermə prosesində hüuqlarının təmin olunduğuna şahid olub: "Biz seçicilərin bütün lazımi avadanlıqlarla təmin olunduğunu gördük. Bundan əlavə, seçici aktivliyi yüksək səviyyədə idi".

# "İstehsalat və məişət tullantıları haqqında" qanunda dəyişikliklərlə bağlı fərman

***Prezident İlham Əliyev "İstehsalat və məişət tullantıları haqqında" qanunda dəyişiklik edilməsi barədə" qanunun icrası ilə əlaqədar bəzi fərmanlarda və sərəncamda dəyişiklik edilməsi haqqında fərman imzalayıb.***

"Unikal" xəbər verir ki, fərmanda deyilir:

1. Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 28 dekabr tarixli 695 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 12, maddə 1245 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Sənayedə İşlərin Təhlükəsiz Görülməsi və Dağ-Mədən Nəzarəti Dövlət Agentliyi haqqında Əsasnamə"nin 8.24-cü bəndində "məişət və istehsalat tullantılarının" sözləri "tullantıların" sözü ilə əvəz edilsin.



2. "Böyükşor gölünün ekoloji vəziyyətinin yaxşılaşdırılması, mühafizəsi və istifadəsi sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 26 dekabr tarixli 61 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 12, maddə 1528 (Cild I) 2.1-ci bəndində və 4-cü hissəsində "istehsalat və məişət tullantılarının" sözləri "tullantıların" sözü ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 9 aprel tarixli 613 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 4, maddə 613 (Cild I) ilə təsdiq edilmiş "Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyinin Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

3.1. 3.1.17-ci yarımbənddə "sənaye və məişət tullantılarının" sözləri "tullantıların" sözü ilə əvəz edilsin;

3.2. 3.2.8-ci yarımbənddə "istehsalat və məişət tullantılarının" sözləri "tullantıların" sözü ilə əvəz edilsin.

4. "Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin fəaliyyəti ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 mart tarixli 975 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 3, maddə 251 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

4.1. həmin Fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi haqqında Əsasnamə"nin 3.0.45-ci yarımbəndində "İstehsalat və məişət tullantıları" sözləri "Tullantılar" sözü ilə əvəz edilsin;

4.2. həmin Fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Dövlət Ekoloji Təhlükəsizlik Xidməti haqqında Əsasnamə" üzrə:

4.2.1. 2.0.2-ci yarımbənddə "məişət və istehsalat tullantılarının," sözləri "tullantıların, o cümlədən" sözləri ilə əvəz edilsin;

4.2.2. 3.0.10-cu yarımbənddə "İstehsalat və məişət tullantıları" sözləri "Tullantılar" sözü ilə əvəz edilsin;

4.3. həmin Fərmanla təsdiq edilmiş "Dövlət Ekoloji Ekspertiza Agentliyinin Nizamnaməsi"nin 3.1.17-ci yarımbəndində "İstehsalat və məişət tullantıları" sözləri "Tullantılar" sözü ilə əvəz edilsin.

5. Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 sentyabr tarixli 1845 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 9, maddə 1034 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin mərkəzi informasiya sistemi haqqında Əsasnamə"nin 7.4.11-ci yarımbəndinə "dövlət rüsumları" sözlərindən sonra ", habelə utilizasiya haqları" sözləri əlavə edilsin.

6. "Zığ gölünün ekoloji vəziyyətinin yaxşılaşdırılması, mühafizəsi və ondan istifadə sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 15 oktyabr tarixli 774 nömrəli Sərəncamında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 10, maddə 1239 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

6.1. 2.1-ci bənddə "istehsalat və məişət tullantılarından" sözləri "tullantılardan" sözü ilə əvəz edilsin;

6.2. 4-cü hissədə "istehsalat və məişət tullantıları" sözləri "tullantıların" sözü ilə əvəz edilsin.

05_27 IYUI-QARA.qxd 2/8/2024 9:52 PM Page 14



# Xaricdə təhsil alan daha 95 nəfərin diplomu tanınmadı



***Xaricdə təhsil alanların diplomlarının tanınması ilə bağlı yanvar ayı üzrə 626 müraciətçinin 531-i barədə müsbət qərar verilərək müvafiq şəhadətnamələr təqdim edilib, 95 nəfərin müraciəti isə mənfi qərarla yekunlaşıb.***

Təhsildə Keyfiyyət Təminatı Agentliyindən "Unikal"a verilən xəbərə görə, tədris yükünü mənimsəmək üçün təhsil aldığı ölkənin ərazisində kifayət qədər olmaması səbəbi ilə 76, dövlət nümunəli olmayan diplom üzrə 8, təhsil forması üzrə 4, akkreditasiyasız ali təhsil müəssisəsi səbəbilə 5, bakalavr diplomu üzrə imtina verilməsi səbəbilə 1, tədris yükü üzrə 1 nəfərin müraciəti mənfi qərarla yekunlaşıb:

"Ölkələr üzrə müraciətlərin sayına nəzər saldıqda Ukraynadan 186, Rusiya Federasiyasından 171, Türkiyə Respublikasından 149, Gürcüstandan 41, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı 17, İtaliyadan 13, Macarıstandan 7, Polşadan 7, Amerika Birləşmiş Ştatlarından 4, İsveçdən 4, Qırğızıstan Respublikasından 4, Çin Xalq Respublikasından 3, Fransadan 3, Qazaxıstan Respublikasından 3, Belarus Respublikasından 2, Əlcəzairdən 2, Almaniyadan 1, Belçikadan 1, Birləşmiş Ərəb Əmirliklərindən 1, Əfqanıstandan 1, Estoniyadan 1, İspaniyadan 1, Kiprdən 1, Litvadan 1, Malavidən 1, Pakistan İslam Respublikasından 1 müraciətin olduğu müşahidə olunur.

Ən çox müraciət olunan ixtisaslara gəlincə, maliyyə üzrə 63, menecment üzrə 52, iqtisadiyyat üzrə 47, biznesin idarə edilməsi üzrə 37, dövlət və bələdiyyə idarəetməsi üzrə 19 müraciətçi qeydə alınıb".

Agentlikdən bildirilib ki, sənədlərə ortalama baxılma müddəti 12 iş günü təşkil edib.

# Yevlaxın içməli və tullantı su infrastrukturları yenidən qurulur

***Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı çərçivəsində Yevlax şəhərinin içməli və tullantı su infrastrukturlarının yenidən qurulması layihəsinin icrası davam etdirilir.***



"Unikal" xəbər verir ki, Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi tərəfindən icra olunan layihənin birinci mərhələsində şəhəri dayanıqlı və keyfiyyətli içməli su ilə təmin etmək üçün müasir sutəmizləyici qurğu inşa edilib, şəhər ərazisində içməli su şəbəkəsinin yenidən qurulmasına başlanılıb.

Yevlax şəhərini dayanıqlı və keyfiyyətli içməli su ilə təmin etmək üçün Kür çayının sahilində məhsuldarlığı sutkada 20 min kubmetr olan qumsüzgəc texnologiyalı sutəmizləyici qurğular kompleksi inşa edilib. Kompleksdə nasos stansiyası, 5 ədəd radial sudurulducu, 16 ədəd qumsüzgəci tikilib. Layihənin ilkin mərhələsində ümumi həcmi 2500 kubmetr olan 2 içməli anbarının və 2,6 km magistral su kəmərinin inşası başa çatdırılıb. Kür çayından nasoslar vasitəsilə götürülən su əvvəlcə xam su anbarına, daha sonra radial durulduculara ötürülür və çökdürülür. Növbəti mərhələdə qum süzgəclərdən keçən su zərərsizləşdirilərək təmiz su anbarına toplanır və yeni magistral kəmərlə şəhərin mövcud içməli su şəbəkəsinə verilir. Hazırda sutəmizləyici qurğu sınaq rejimində istismar olunur. 2023-cü ildə Yevlax şəhərinin yeni içməli su şəbəkəsinin də tikintisinə başlanılıb. Ötən müddətdə 28 km paylayıcı şəbəkə inşa edilib. Yeni şəbəkədən abonentlərə ev birləşməsi verilərək sayğaclar quraşdırılıb. Şəhərin içməli və tullantı su şəbəkələrinin tamamilə yenidən qurulması layihənin növbəti mərhələlərində həyata keçiriləcək.

Yevlax şəhərinin içməli su şəbəkəsinin yenidən qurulması işləri 2024-cü ildə də davam etdiriləcək. Ümumilikdə layihə çərçivəsində Yevlax şəhərində 135 km içməli, 115 km uzunluğunda tullantı su şəbəkəsi yaradılacaq. Şəhərdə yaranacaq tullantı sularının təmizlənib kənarlaşdırılması məqsədilə məhsuldarlığı sutkada 12500 kubmetr olan tullantı sutəmizləyici qurğunun inşası da nəzərdə tutulur. Layihənin icrasından 2035-ci ilə perspektiv inkişaf nəzərə alınmaqla 70 min nəfər sakin faydalanacaq.

Qeyd edək ki, Yevlax şəhərində mövcud olan içməli və tullantı su təchizatı sistemləri 1950-1970-ci illərdə yaradılıb. Mövcud içməli su şəbəkəsi şəhərin 60 faizini, tullantı su şəbəkəsi isə cəmi 20 faizini əhatə etməklə istismara yararsız vəziyyətə düşüb.

# 30 gün ərzində gündə bir avokado yesəniz nə olar?

***Avokadonun insana faydaları saysız-hesabsızdır. Ürəyinizə, böyrəyinizə, dərinizə, immunitetinizə, arıqlamağa kömək edir. Yağlarla zəngin olan avokadonun insan sağlamlığına faydalı təsirləri çoxdur. Superfood hesab edilən bitki əsaslı və liflə zəngin qidadır. Bəs 30 gün ərzində gündə bir avokado yesəniz nə olar?***

"Unikal" avokadonun faydalarını təqdim edir: Avokadonun təkcə meyvəsində deyil, yarpaqlarında, toxumunda və meyvə qabığında da insan sağlamlığı üçün çox qiymətli qida və fitokimyəvi maddələr var. Bu səbəbdən qida, tibb, əczaçılıq və kosmetika sənayesi kimi bir çox sahədə istifadə edilən qida maddəsidir.

Qurudulmuş avokado meyvələrinin qabıqları ilə hazırlanan çayın antioksidant fəaliyyətinin mate və alma çayından daha yüksək olduğu bildirilir. Avokado istehlakının xərçəngə qarşı mümkün qoruyucu təsiri ilə bağlı araşdırmalara görə, meyvəsi xərçəng əleyhinə, qabıqları isə şiş əmələ gəlməsinin qarşısını alan xüsusiyyətlərə malikdir.

Avokadoda olan lutein göz xəstəliklərindən, xüsusən də kataraktadan və makula degenerasiyasından qoruyur. Əlavə olaraq, araşdırmaya görə, gündəlik yarım avokado (68qr) istehlak etmək, doymamış yağ turşuları, lif, A, C, E, K və B vitaminləri, kalium və maqnezium kimi bir çox qida ehtiyacının qarşılanmasına töhfə verə biləcəyi ifadə edilir.

*Zərifə Nağıyeva*

# Nömrələri təmiz saxlayın - DYP-dən sürücülərə müraciət

***DİN-in Baş Dövlət Yol Polisi İdarəsi dövlət qeydiyyat nişanları ilə bağlı sürücülərə müraciət edib.***




"Unikal" xəbər verir ki, müraciətdə deyilir: "Qanunvericiliyə əsasən hərəkətdə olan nəqliyyat vasitəsinin dövlət qeydiyyat nişanlarının aydın görünməsi üçün onun təmiz saxlanılması təmin edilməlidir. Bu vəzifənin yerinə yetirilməməsi avtomobilin istismarı qaydalarının pozulması hesab edilir və inzibati məsuliyyət yaradır.

Lakin, təəssüf ki bəzi sürücülər havaların yağışlı, çiskinli olmasını bəhanə gətirərək avtomobillərinin dövlət qeydiyyat nişanlarının təmizliyinə biganə yanaşır, hətta bilərəkdən nişanların üstünü süni şəkildə çirkləndirməyə çalışırlar ki, bu da qətiyyən yolverilməzdir. Dəyərli sürücülər! Unutmayaq ki, idarə etdiyimiz nəqliyyat vasitələrinin dövlət qeydiyyat nişanlarını təmiz saxlamaqla həm üzərimizə düşən vəzifəni yerinə yetirir, həm də ölkəmizdə sürücü intizamının yüksəlməsinə töhfə vermiş oluruq".

# "Aztelekom" MMC əməyin təhlükəsizliyi üzrə təlimlərə 3060 nəfəri cəlb edib

***"Aztelekom" MMC əməkdaşların və ətraf mühitin təhlükəsizliyini təmin etmək məqsədilə 2023-cü il ərzində "Onlayn Azərbaycan" layihəsində iştirak edən əməkdaşlar və podratçı şirkətlərin işçi heyəti üçün bu sahədə səyyar təlimlər həyata keçirib.***

"Unikal" xəbər verir ki, əməkdaşların təhlükəsizlik texnikası, xüsusilə də elektrik təhlükəsizliyi sahəsində maarifləndirilməsi və təkmilləşdirilməsi məqsədini daşıyan təlimlərə ümumilikdə 3060 əməkdaş cəlb olunub.

SƏTƏMM mühəndislərinə keçirilən təlimdə regionlar üzrə işə yeni qəbul olunan şəxslərlə yanaşı, podratçı şirkətlərin əməkdaşları da iştirak ediblər. 20 saatlıq təlimin sonunda iştirakçılara sertifikatlar təqdim olunub. Şirkətin "Onlayn Azərbaycan" layihəsində iştirak edən əməkdaşlarının və podratçı şirkətlərin işçi heyətinin təhlükəsizlik texnikası sahəsində maarifləndirilməsi və təkmilləşdirilməsi məqsədilə 5 regional filialın (Şimal - Şərq Regional Filialı, Dağlıq Şirvan Regional Filialı, Şimal - Qərb Regional Filialı, Aran Regional Filialı, Mərkəzi Aran Regional Filialı) mərkəzi şöbələrində təlimlər keçirilib.

Qeyd edək ki, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən həyata keçirilən "Onlayn Azərbaycan" layihəsi çərçivəsində 2017 - 2023-cü illərdə 1 milyon 916 min ev təsərrüfatı və biznes subyektinin genişzolaqlı internetə çıxış imkanı yaradılıb. Bu, ölkədə mövcud ev təsərrüfatlarının və biznes subyektlərinin 66%-ni təşkil edib. Təkcə 2023-cü il ərzində Azərbaycanda 1,1 milyondan artıq ev təsərrüfatı və biznes subyekti genişzolaqlı internetə çıxış imkanı əldə edib. Görülən işlərin 2024-cü ilin sonuna kimi yekunlaşacağı planlaşdırılır.

05_27 IYUI-QARA.qxd 2/8/2024 9:52 PM Page 15



# Haitidə hökumət əleyhinə etirazlar - Ölənlər var



***Haitidə baş nazir Ariel Henrinin istefası tələbi ilə keçirilən aksiyalarda 6 nəfər ölüb, onlarla insan yaralanıb.***

"Unikal" xəbər verir ki, ölkənin bir çox şəhərində keçirilən aksiyalarda minlərlə insan polislə toqquşub.

Çox sayda adamın saxlanıldığı qarşıdurmada təhlükəsizlik qüvvələrinin nəzarəti itirdiyi və dəstələrin içəri girdiyi iddia edilib.

Ölkə daxilində meydanlara çıxan minlərlə insan baş nazir Henrinin "təhlükəsizliyi təmin edə bilmədiyi və iqtisadi böhrana çarə tapa bilməməsi " səbəbiylə istefasını tələb edib.

*Zərifə Nağıyeva*

# Pakistanda seçki məntəqəsinə silahlı hücum edildi - Polis öldü



***Pakistanın sərhəd bölgəsində ümumi seçkilər zamanı seçki məntəqəsinə hücum edilib.***

"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, silahlı hücum nəticəsində azı bir polis həlak olub.

Bildirilib ki, hadisə Tank sərhəd bölgəsindəki Kot Əzəm seçki məntəqəsində səsvermə prosesi zamanı qeydə alınıb.

# "Qırmızı bülleten"lə axtarışda olan terrorçu məhv edilib



***Türkiyə Milli Kəşfiyyat Təşkilatı (MİT) İraqın Qara bölgəsində keçirdiyi əməliyyatda "Qırmızı bülleten"lə axtarışda olan terrorçu məhv edilib.***

"Unikal" xəbər verir ki, bu barədə Türkiyə mətbuatı məlumat yayıb.

Bildirilir ki, MİT-in Qara bölgəsində həyata keçirdiyi əməliyyatla "Şivan Gever" kod adlı terrorçu Yunus Dəmir zərərsizləşdirilib.

# Türkiyədə İŞİD-in 147 üzvü saxlanıldı

***Türkiyənin 33 vilayətdə İŞİD Terror Təşkilatına qarşı eyni vaxtda "Kahramanlar - 49" əməliyyatı keçirilib.***

"Unikal" xəbər verir ki, bu barədə Türkiyənin daxili işlər naziri Ali Yerlikaya məlumat yayıb.

Onun sözlərinə görə, həyata keçirilən "Kahramanlar - 49" əməliyyatlarında 147 şübhəli ələ keçirilib.

# Sinan Oğandan İlham Əliyevlə bağlı paylaşım



***Türkiyədə prezidentliyə keçmiş namizəd Sinan Oğan İlham Əliyevi yenidən Azərbaycan Prezidenti seçilməsi münasibətilə təbrik edib.***

"Unikal" xəbər verir ki, siyasətçi bu barədə "X" hesabında paylaşım edib.

"Azərbaycanda keçirilən prezident seçkilərində qalib gələrək yenidən Prezident seçilən cənab İlham Əliyevi təbrik edirəm. 30 illik işğaldan sonra azad edilən Qarabağ və Şərqi Zəngəzur bölgələri də daxil olmaqla bütün Azərbaycan ərazisində keçirilən bu seçkinin nəticələrinin Azərbaycandakı qardaşlarımıza və bütün türk dünyasına xeyir-dua gətirməsini diləyirəm", - deyə S. Oğan bildirib.

# "Ermənistanda elə bir sektor yoxdur ki, problem olmasın" - Paşinyan

***Biz qarşıya vəzifə qoymuşuq ki, yeni atom elektrik stansiyası tikək.***



"Unikal" xəbər verir ki, bunu Ermənistanın baş naziri Nikol Paşinyan əvvəl hökumətin iclasında bildirib.

Onun sözlərinə görə, AES-in tikilməsi üçün pul və layihə olsa da, mütəxəssis yoxdu: "Artıq gecikmişik. Göstəriş vermişəm ki, hərbi xidmətdən möhlət hüquqlarını müəyyən edərkən biz nüvə təhlükəsizliyi sahəsini xüsusi nəzərə almalıyıq. Bizim həyata keçirəcəyimiz layihə var və onun bir hissəsi mütəxəssislərin hazırlanmasıdır. Ermənistanda elə bir sektor yoxdur ki, biz həm özəl, həm də dövlət sektorunda problemlə məşğul olmayaq".

*Ağarza Elçinoğlu*

# "Putinin Karlsonla müsahibəsi dünyada rezonansa səbəb oldu" - Peskov

***Amerikalı jurnalist Taker Karlsonun özü və Vladimir Putinlə müsahibəsi dünyada böyük rezonansa səbəb olub.***

"Unikal" xəbər verir ki, bunu Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov jurnalistlərə açıqlamasında deyib.

"Karlsonun özü və onun Rusiyaya səfəri, Putinlə müsahibəsi təkcə Amerikada deyil, ölkəmizdə də xüsusi rezonans doğuran hadisələrdir. Rezonans bəzən miqyasdan da çıxır ", - o qeyd edib.

Kreml rəsmisi vurğulayıb ki, bu müsahibə bir gündən çox oxunacaq və təhlil ediləcək, çünki bu mühüm hadisədir.

Qeyd edək ki, dünyada milyonlarla insan Vladimir Putinin Taker Karlsonla müsahibəsini gözləyir. Son məlumatlara görə, müsahibənin anonsu 80 milyondan çox insan tərəfindən izlənilib. Material fevralın 9-da dərc olunacaq.

*Gülayə Mecid*



# "Bizdə Azərbaycan və Ermənistan üçün lazım olan materiallar var" - Rusiya XİN

***Ermənistanla Azərbaycan arasında dialoqda Rusiyanın rolunun alternativi yoxdur.***



"Unikal" xəbər verir ki, bunu "Rossiya-24" telekanalına müsahibəsində Rusiya xarici işlər nazirinin müavini Mixail Qaluzin deyib.

Qaluzin qeyd edib ki, Rusiyanın hazırkı vəzifəsi hər iki ölkəyə barışıq və dinc qarşılıqlı fəaliyyət yollarını tapmaqda kömək etməkdir: "Məhz Rusiyanın himayəsi altında, məhz prezident Vladimir Putinin təşəbbüsü ilə Ermənistan və Azərbaycan arasında nizamlanmanın əsasları yaradılıb".

Onun sözlərinə görə, Rusiya sülh müqaviləsinin bağlanması ilə bağlı bütün məsələlər üzrə yardım göstərir: "Rusiya tərəfində Azərbaycan-Ermənistan sərhədinin delimitasiyası üçün lazım olan materiallar var".

O, həmçinin qeyd edib ki, Moskva hər zaman dialoq üçün platforma təqdim etməyə hazırdır.

*Ağarza Elçinoğlu*

# Şimali Koreya Cənubi Koreya ilə iqtisadi əlaqələri kəsir

***Ölkənin ali qanunvericilik və nümayəndəlik orqanı olan KXDR Ali Xalq Məclisinin Daimi Komitəsi Cənubi Koreya ilə iqtisadi əməkdaşlığa dair bütün qanunları ləğv etmək qərarına gəlib.***



"Unikal" xəbər verir ki, bu barədə Şimali Koreyanın dövlət xəbər agentliyi KCNA məlumat yayıb.

KXDR-də daimi komissiyanın qərarına əsasən, Koreyalararası iqtisadi əməkdaşlıq haqqında, Kumqan dağına (KXDR ərazisində yerləşir - red.) beynəlxalq turlar üçün xüsusi zona haqqında qanunlar və onun tətbiqi qaydaları, eləcə də Şimalla Cənub arasında iqtisadi qarşılıqlı fəaliyyət haqqında digər sazişlər qüvvədən düşüb.

# AFFA 3 klubu cərimələdi

***AFFA İntizam Komitəsi 3 klubu cərimələyib.***

”Unikal”ın məlumatına görə, Azərbaycan Premyer Liqasının XXI turunda keçirilən “Səbail” - “Qarabağ” (1:2) və “Sabah” - “Turan Tovuz” (1:1) oyunlarında qeydə alınan neqativ hallara hüquqi qiymət verilib.

“Səbail”lə görüşdə 4 futbolçusu sarı vərəqə alan “Qarabağ” 700 manat cərimələnib. Qarşılaşmanın 66-cı dəqiqəsində qırmızı vərəqə alan ağdamlıların kapitanı Maksim Medvedevə 1 matçlıq cəza verilib. Bu, “Qarabağ”ın daha 500 manat cərimə olunması ilə nəticələnib.



“Turan Tovuz”la ev oyunundan sonra meydana kənar şəxslərin daxil olması “Sabah”ı 800 manat ziyana salıb. Qonaq komandanın azarkeşlərinin oturduqları sektorda sındırılmış 6 ədəd oturacaqla bağlı stadiona dəymiş zərərin “Turan Tovuz” klubu tərəfindən qarşılanması qərara alınıb.

# Avropa İttifaqının üzvləri Superliqaya qarşı bəyanat imzaladılar

***Avropa İttifaqına daxil olan ölkələr futbol üzrə Avropa Superliqasının yaradılmasına qarşı çıxıblar.***

QOL.az xəbər verir ki, daxili yarışlarda və bütün Avropa turnirlərində illik nəticələr arasında əlaqəni təmin etmək üçün hazırlanmış müvafiq bəyanat İspaniya istisna olmaqla, təşkilatın bütün üzvləri tərəfindən imzalanıb.




2021-ci ilin aprel ayında 12 klub (”Real”, ”Yuventus”, ”Barselona”, ”Atletiko”, ”Milan”, ”İnter”, ”Mançeser Yunayted”, ”Mançester Siti”, ”Çelsi”, ”Liverpul”, ”Tottenhem” və ”Arsenal”) Superliqanın yaradıldığını elan etmişdilər. FİFA və UEFA-nın xəbərdarlığından sonra ”Real”, ”Barselona” və ”Yuventus”dan başqa digər klubun turniri tərk etməsi ilə Avropa Superliqası layihəsinin başlaması təxirə salınmışdı. Lakin bir müddət əvvəl yenidən sözgedən klublar layihəni gündəmə gətiriblər.

Dekabrın 21-də Avropa Məhkəməsi FİFA və UEFA-nın yeni turnirin yaradılmasına mane olmaq üzrə cəhdlərini qanunsuz elan edib.

# Azərbaycanın "Böyük Dəbilqə"də iştirak edəcək cüdoçuları

***Azərbaycan cüdo millisinin Bakıda keçiriləcək “Böyük Dəbilqə” turniri üçün heyəti açıqlanıb.***

QOL.az Beynəlxalq Cüdo Federasiyasının rəsmi saytına istinadən xəbər verir ki, yarışda Azərbaycanın 33 idmançısı iştirak edəcək. Onlardan 22-si kişi, 11-i qadın cüdoçudur.

Qeyd edək ki, “Böyük Dəbilqə” 16-18-i fevral tarixlərində Milli Gimnastika Arenasında keçiriləcək.

**Kişilər**

60 kq: Balabəy Ağayev, Turan Bayramov, Əhməd Yusifov, Nazir Talıbov

66 kq: Yaşar Nəcəfov, Kamran Süleymanov, Rəşad Yelkiyev, İslam Rəhimov

73 kq: Hidayət Heydərov, Rəşid Məmmədəliyev, Nurlan Osmanov, İbrahim Əliyev

81 kq: Səid Mollayi, Zelim Tçkayev, Ömər Rəcəbli

90 kq: Murad Fətiyev, Elcan Hacıyev, Vüqar Talıbov

100 kq: Zelim Kotsoyev, Əjdər Bağırov

+100 kq: Uşanqi Kokauri, Kənan Nəsibov

**Qadınlar**

48 kq: Leyla Əliyeva, Könül Əliyeva

52 kq: Gültac Məmmədəliyeva, Aydan Vəliyeva, Xədicə Qədəşova



57 kq: Fidan Əlizadə, Açelya Toprak

63 kq: Aytac Qardaşxanlı

70 kq: Südabə Ağayeva, Günel Həsənli

+78 kq: Nigar Süleymanova



# "Fənərbaxça" mərhələ adladı

***Türkiyə kubokunda 1/8 finalın oyunları keçirilir.***

”Unikal” xəbər verir ki, Superliqanın lideri ”Fənərbaxça” səfərdə ”Qaziantep”lə qarşılaşıb. 2:0 hesablı qələbə qazanan İstanbul klubu 1/4 finala yüksəlib. Mişu Batşuayi 17 və 31-ci dəqiqələrdə fərqlənərək dubl edib. ”Qaziantep” - ”Fənərbaxça” - 0:2.

# “Neftçi”nin üç futbolçusu kubok oyununu buraxacaq



***“Neftçi” Azərbaycan Kubokunun 1/4 final mərhələsinin “Sumqayıt”la keçiriləcək cavab oyununa itkilərlə çıxacaq.***

Klubdan ”Unikal”a verilən məlumata görə, üç futbolçu qarşıdakı matçı buraxacaq.

Bir müddətdir zəd=əli olan Kilan Lebon artıq tam olaraq məşqlərə qoşulub. Qapıçı İvan Brkiçin isə müalicə prosesini davam edir. Xorvatiyalı qolkiperin məşqlərə geri dönəcəyi vaxt bir həftə sonra baş tutacaq müayinədən sonra müəyyənləşəcək.

Emil Balayev və Asiya kubokunda zədələnən Ataa Caberin müalicə və reabilitasiyası davam edir.

# "Barselona"dan Mourinyo ilə bağlı açıqlama

***”Barselona”nın idman direktoru Deko ”Roma”nın sabiq çalışdırıcısı Joze Mourinyonun Kataloniya təmsilçisinin baş məşqçisi təyin oluna biləcəyi barədə xəbərlərə münasibət bildirib.***

”Unikal” xəbər verir ki, mütəxəssis portuqaliyalı məşqçi ilə danışıqlar aparmadıqlarını deyib: “Mourinyo və ”Barselona”? Joze mənim dostumdur. Amma biz uzun müddətdir ki, danışmırıq”.

Qeyd edək ki, ”Barselona”nın hazırkı baş məşqçisi Xavi mövsümün sonunda klubdan ayrılacağını açıqlayıb. Onun komandası İspaniya La Liqasının turnir cədvəlində 50 xalla 3-cüdür.

# Çeferin: "Rasizm zamanı hakimlər oyunu dayandırmalıdırlar"



***UEFA prezidenti Aleksander Çeferin rasizm zamanı oyunları dayandırmağa çağırıb.***

Bu barədə o, Relevo X sosial şəbəkəsində (keçmiş Twitter) paylaşım edib.

A. Çeferin matçlarda rasizm hadisələri haqda belə deyib: “Hakimlər oyunu dayandırmalıdırlar. Biz bütün dünya stadionlarında bu məsələyə daha da ciddi yanaşmalıyıq. Təklif edirəm ki, birlikdə işləyib Banqkokda keçiriləcək növbəti FİFA konqressində həlledici qətnamə qəbul edək”.

Xatırladaq ki, Aleksander Çeferin 2016-cı ilin 14 sentyabrından UEFA-nın prezidentidir.

# Messi azarkeşlərdən üzr istədi



***”İnter Mayami”nin hücumçusu Lionel Messi Çin sosial şəbəkəsi ”Weibo”da yeni paylaşım edib.***

QOL.az xəbər verir ki, forvard paylaşımında “İnter Mayami” ilə Honq-Konq millisi arasında Konq-Konqda keçirilən yoldaşlıq matçında oynaya bilmədiyi üçün azarkeşlərdən üzr istəyib. Messi yazıb:

“Çin və Honq-Konqdakı bütün azarkeşlərə və dostlara salam. Qasıq nahiyəsindən zədə aldığım üçün Honq-Konqda yoldaşlıq görüşündə oynaya bilmədim. Buna görə təəssüflənirəm və üzr istəyirəm. Zədə ağrılı idi. Məni tanıyan dostlar başa düşəcəklər ki, hər oyunda əlimdən gələni etmək istəyirəm.

Ümid edirəm ki, hələ də Honq-Konqa səfər etmək və öz oyunumla azarkeşləri sevindirmək imkanım olacaq. Mən də tezliklə Çinə qayıtmağı və futbol sevincini sizinlə bölüşməyi səbirsizliklə gözləyirəm” deyə futbolçu yazıb.

Qeyd edək ki, argentinalının yoxluğu azarkeşlərin, eləcə də Honq-Konq və Çinin dövlət qurumlarının nümayəndələrinin kütləvi narazılığına səbəb olub.